HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 46 (888) ▪ 29 noyabr 2017 www.vergiler.az Qiymәti: 60 qәp.


## Azərbaycan dünyada dayanıqlı sülhə və təhlükəsizliyə mühüm töhfə verir

**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfər edib. NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə Alyansın mənzil-qərargahına gələn dövlətimizin başçısını qarşılayan qurumun rəhbəri ilə görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanıb, ölkəmizin Kosovo və Əfqanıstandakı sülhməramlı missiyalardakı iştirakı yüksək qiymətləndirilib.**

NATO-nun baş katibi qeyd edib ki, Azərbaycanın Əfqanıstana yardımı genişləndirmək planı bu ölkənin iqtisadi inkişafına öz töhfəsini verə bilər. Prezident İlham Əliyev isə NATO ilə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirərək vurğulayıb ki, Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda və bu ölkənin iqtisadiyyatının yenidən qurulmasında fəal iştirak edir. Söhbət zamanı Azərbaycanın Ceyrançöl ərazisində NATO-nun minatəmizləmə əməliyyatlarına verdiyi dəstəkdən məmnunluq ifadə olunub. Görüşdə, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparılıb, danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər. Y.Stoltenberq bildirib ki, NATO ilə Azərbaycan arasındakı tərəfdaşlığın başlanğıcı uzun illər bundan öncəyə təsadüf edir. Bu tərəfdaşlığın təməli demokratik dəyərlərə və prinsiplərə sadiqlik əsasında qoyulub: «Bu gün bizim praktiki əməkdaşlığımız bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər bir çox sahələri əhatə edir və keçmiş sovet ordusundan qalmış partlamamış mina və hərbi sursatların təmizlənməsi üçün etimad fondu çərçivəsində aparılır... Biz seçdiyiniz bütün sahələrdə Sizinlə işimizi davam etdirməyə və əməkdaşlığımızı daha da inkişaf etdirməyə sadiqik. Biz Sizi təhlükəsizlik sahəsində islahatların daha da artırılmasına dəvət edirik və korrupsiya ilə mübarizə sahəsində Sizə dəstək olmaq üçün bizim dürüstlüyün artırılması proqramından tam faydalanmağa çağırırıq».

Baş katib qeyd edib ki, görüşdə Cənubi Qafqazda regional təhlükəsizlik də müzakirə olunub: «Həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi narahatlığa səbəb olan məsələdir. Aydındır ki, münaqişənin hərbi yolla həlli imkanı yoxdur və NATO bu məsələdə birbaşa rola malik deyil. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərinin işini dəstəkləyirik və Ermənistan prezidenti ilə bərpa etdiyiniz dialoq barədə eşitdiyim xəbər məni ruhlandırdı. Biz münaqişənin həlli ilə bağlı danışıqların davam etdirilməsini və vəziyyətin gərginləşməsinə yol verilməməsini istəyirik».

Mətbuata bəyanatla çıxış edən dövlətimizin başçısı Azərbaycanın NATO-nun bir çox əməliyyatlarında - KFOR-da, İSAF-da iştirak etdiyini, Qətiyyətli Dəstək Missiyasına öz töhfəsini verdiyini, Əfqanıstanda təhlükəsizliyi və sülhü təmin etmək üçün 94 hərbi qulluqçumuzun NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət etdiyini, həmçinin koalisiya qüvvələri üçün multimodal tranzit və ərazimiz üzərindən uçuş imkanlarının yaradıldığını xatırladıb: «Azərbaycan Əfqanıstan ordusunun Milli Etimad Fonduna töhfə verib və cənab baş katibin qeyd etdiyi kimi, biz bu ölkədə sülh, təhlükəsizlik və sabitliyə daha da artıq töhfə vermək üçün hərbi qulluqçularımızın sayını artıracağıq. 2004-cü ildən bəri Azərbaycan Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına qoşulub və dörd tsikli bitirib. Beşinci tsikl hazırda icra olunmaqdadır. Bu, həmçinin, bizim əməkdaşlığımızın vacib elementidir».

Prezident İlham Əliyev regional təhlükəsizlikdən bəhs edərkən ən böyük təhlükə kimi Ermənistanla Azərbaycan arasında həll olunmamış münaqişəni vurğulayıb: «Uzun illərdir ki, ərazilərimiz erməni işğalı altındadır, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb və əfsuslar olsun ki, vəziyyət dəyişməz olaraq qalır. ATƏT-in Minsk qrupuna üzv olan ölkələrin prezidentlərinin status-kvonun qəbuledilməzliyi və dəyişilməli olduğu ilə bağlı bəyanatlarına rəğmən, Ermənistan status-kvonu mümkün qədər çox saxlamaq istəyir. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul edib. Qarşı tərəf iyirmi ildən artıqdır ki, bu qətnamələri icra etmir. Münaqişə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır».

Həmin gün Brüsseldə keçirilən NATO-nun Şimali Atlantika Şurasının iclasında Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirən dövlətimizin başçısı ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayıb, öz növbəsində, NATO-nun Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində rolunu qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu qeyd edib, «Cənub Qaz Dəhlizi» layihəsindən danışıb, TANAP və TAP layihələrinin uğurla icra edildiyini və Azərbaycanın uzun illər bundan sonra da Avropanın etibarlı qaz təminatçısına çevriləcəyini bildirib. Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu yolun Asiya ilə Avropa arasında ən qısa yol olduğunu, Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb arasında mühüm tranzit qovşağına çevrildiyini vurğulayıb.

Prezident İlham Əliyev çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə geniş toxunub, ölkəmizin 20 faiz torpağının, o cümlədən Dağlıq Qarabağ və ətraf 7 rayonun hələ də işğal altında olduğunu bildirib. Ermənilərin həmin ərazilərdə törətdikləri hərbi cinayətlər, Xocalı soyqırımı, günahsız insanların qətlə yetirilməsi və etnik təmizləməyə məruz qalması barədə ətraflı danışan dövlətimizin başçısı ATƏT-in faktaraşdırıcı missiyalarının da işğal olunmuş ərazilərdə dağıntıları qeydə aldıqlarını diqqətə çatdırıb. Sonda dövlətimizin başçısı NATO-dakı səfirlərin suallarını cavablandırıb.

Noyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Şərq Tərəfdaşlığı Sammitində iştirak edib. Sammitin plenar sessiyasında çıxış edən dövlətimizin başçısı Avropa İttifaqı ilə tərəfdaşlığın Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən olduğunu, bu ilin fevralında ölkəmizin yeni sazişlə bağlı qurumla fəal danışıqlara başladığını diqqətə çatdırıb. Qeyd olunub ki, danışıqlar tezliklə başa çatacaq və tərəflər arasında əməkdaşlığı davam etdirmək üçün imkanlar yaranacaq. Azərbaycan Prezidenti bildirib ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır: «Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox investisiya yatırılıb. Bu, bizim yaxşı investisiya mühitinə malik olduğumuzu nümayiş etdirir. Avropa şirkətləri bizim iqtisadiyyatımızı dəstəkləmək üçün böyük maliyyə vəsaiti yatırmağa hazırdır. Eyni zamanda, biz üzv dövlətlərlə ikitərəfli formatda əlaqələrimizi fəal şəkildə inkişaf etdiririk. Azərbaycan Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu, o deməkdir ki, üzv ölkələrin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc müstəqil ölkə üçün çox vacibdir və əlbəttə ki, biz Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşmanı strateji əlaqələrin gücləndirilməsində daha bir mühüm mərhələ hesab edirik».

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan siyasi və iqtisadi islahatlar siyasətini davam etdirir: «Biz demokratiyanın inkişafı, insan haqlarının qorunmasına böyük önəm veririk və buna ciddi şəkildə sadiqik. Eyni zamanda, biz iqtisadiyyatımızı dəyişdiririk. Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı həm də bizim müstəqilliyimiz üçün güclü təməldir. İqtisadi cəhətdən müstəqil olanda, sözsüz ki, daha müstəqil xarici siyasət yürütmək olar. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. 2004-cü ildən ümumi daxili məhsul 3 dəfədən çox artıb. Biz işsizlik səviyyəsini 5 faizə endirməyə nail olmuşuq. Xarici borc ümumi daxili məhsula nisbətdə 20 faizdən də aşağı səviyyədədir. Bizim yaxşı kredit reytinqlərimiz var. Davos Dünya İqtisadi Forumu iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinə görə ölkəmizi 35-ci yerə layiq görüb».

Azərbaycan Prezidenti vurğulayıb ki, ölkəmizin üzləşdiyi əsas problem torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdirilməsidir: «XXI əsrdə separatizm, təcavüzkar separatizm qəbul edilə bilməz. Separatizmin bütün formaları pislənməlidir və separatizmin bütün təzahürlərinə vahid yanaşma tətbiq edilməlidir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və bərpa olunmalıdır».

Dövlətimizin başçısı Avropa təsisatları ilə enerji sahəsində yaxından əməkdaşlıq məsələlərinə diqqət çəkib, Cənub Qaz Dəhlizinin əhəmiyyətinə toxunub, regionda həyata keçirilən mühüm transnəqliyyat layihələri barədə məlumat verib. Ötən ay açılışı olmuş Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən, bununla da Asiya ilə Avropa arasında yeni nəqliyyat əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən bəhs edən Prezident İlham Əliyev bildirib ki, bu nəqliyyat dəhlizi qarşılıqlı ticarət dövriyyəsini artıracaq.

Azərbaycan Prezidenti İlham Əliyev Brüsselə səfəri çərçivəsində bir sıra ölkələrin dövlət başçıları və ictimai-siyasi xadimləri ilə də görüşüb.




***Azərbaycan Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu, o deməkdir ki, üzv ölkələrin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir.***

## Prezident İlham Əliyevin bölgələrə səfəri

### *Dövlət başçısı Tərtər, Ağcabədi və Sabirabad rayonlarında olub*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tərtər rayonuna gəlib. Son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlətimizin başçısına məlumat verilərək bildirilib ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıb. Ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi parkda yenidənqurma və abadlıq işləri görülüb, əhalinin istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıq zolağı genişləndirilib.

Prezident İlham Əliyev səfər çərçivəsində Tərtər Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın, Tərtər-Seydimli-Qaradağlı-Sarov avtomobil yolunun açılışında iştirak edib, 1170 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, 1170 mənzilin ümumi sahəsi 88 min kvadratmetrdir. Mənzillərdən 120-si bir, 504-ü iki, 472-si üç, 80-i isə dördotaqlıdır. Burada Tərtər rayonu ərazisində müvəqqəti məskunlaşmış Kəlbəcər, Ağdam, Laçın, Cəbrayıl və Şuşadan olan məcburi köçkünlər yerləşdiriləcək. 50 hektarlıq torpaq sahəsində inşa edilən yeni yaşayış kompleksində zəruri infrastruktur obyektləri - məktəb, uşaq bağçası, musiqi məktəbi, inzibati bina, klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası inşa olunub. Yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 97-ci şəhərcikdir.

Sonra dövlətimizin başçısı Tərtər rayonu ərazisində yerləşən «N» saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub. Prezident, Ali Baş Komandan İlham Əliyevə məlumat verilib ki, 6 hektar ərazisi olan hərbi hissədə qərargah binası, üç əsgər yataqxanası, 360 nəfərlik əsgər yeməkxanası, müxtəlif təyinatlı anbarlar, məişət otaqları və digər infrastruktur bölmələri, 100 maşınlıq avtomobil parkı yerləşir. Buradakı şəraitlə bağlı məmnunluğunu ifadə edən Ali Baş Komandan bu hərbi hissənin timsalında ordumuzda yaradılan yüksək şəraitin mövcudluğunu qeyd edib və bildirib ki, bu da öz növbəsində Azərbaycan Silahlı Qüvvələrinin hər zaman öz döyüşkən ruhunu qorumasına imkan verir.

Həmin gün Ağcabədi rayonuna gələn Prezident İlham Əliyev Bayraq Muzeyinin və Tarix-Diyarşünaslıq Muzeyinin yenidənqurmadan sonra açılışında iştirak edib, daha sonra Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 4 nömrəli körpələr evi-uşaq bağçasında olub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağcabədi rayonuna səfəri çərçivəsində Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, hərbi hissədə qərargah binası, əsgər yataqxanaları, yeməkxana kompleksi, tibb məntəqəsi və digər zəruri binalar inşa olunub. Qərargah binasında hərbi hissənin döyüş bayrağının yerləşdiyi xüsusi guşə yaradılıb, idarə heyətinin xidməti otaqları, konfrans zalı və digər zəruri otaqlar istifadəyə verilib. Qərargah binasında komandanlığın yüksək səviyyədə çalışması və istirahəti üçün bütün zəruri şərait mövcuddur. Dövlətimizin başçısı Ağcabədi rayonunda yeni çörək və un məmulatları zavodunun açılış mərasimində də iştirak edib.

Həmin gün Sabirabad rayonuna gələn dövlətimizin başçısı Sabirabad Sənaye Məhəlləsinin təməlqoyma mərasimində iştirak edib. Qeyd edək ki, Azərbaycan Prezidentinin bir gün əvvəl imzaladığı sərəncama əsasən, Sabirabadda da sənaye məhəlləsi yaradılacaq. İyirmi hektar ərazidə salınacaq bu sənaye mərkəzində yun tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələri və logistika mərkəzinin fəaliyyət göstərməsi planlaşdırılır.

Prezident İlham Əliyev səfər çərçivəsində Sabirabadda Bayraq Muzeyinin, Mərkəzi Xəstəxananın, tamamilə bərpa edilərək yenidən qurulmuş Suqovuşan-Qaralar-Qəfərli-Əhmədabad-Nərimankənd-Həşimxanlı avtomobil yolunun açılışında iştirak edib, rayonun Nizami kəndində «Sabirabad Quşçuluq» MMC-nin əmtəəlik yumurta və quş əti istehsalı fabrikinin fəaliyyəti ilə tanış olub.

### BU NÖMRƏMİZDƏ


ƏLDƏ OLUNAN RAZILAŞMALAR İKİTƏRƏFLİ ƏLAQƏLƏRİN İNKİŞAFINA ZƏMİN YARADACAQ 2

VERGİLƏR NAZİRLİYİ SAHİBKARLARLA DİALOQA VƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞA BÖYÜK ÖNƏM VERİR 3

QANUNSUZ SAHİBKARLIQLA MƏŞĞULOLMA FAKTLARI AŞKAR EDİLİB 4

ƏSAS MƏQSƏD İXRACI ÖLKƏDƏN İXRAC EDƏN ÖLKƏYƏ ÇEVRİLMƏKDİR 5

# Əldə olunan razılaşmalar ikitərəfli əlaqələrin inkişafına zəmin yaradacaq

## Noyabrın 28-də Bakıda Azərbaycan və Xorvatiya arasında iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın ilk iclası keçirilib

**İclasda komissiyanın Azərbaycan tərəfdən həmsədri, vergilər naziri Fazil Məmmədovun, Xorvatiya tərəfdən isə komissiyanın həmsədri, Baş nazirin müavini, iqtisadiyyat, sahibkarlıq və peşə naziri xanım Martina Daliçin başçılıq etdikləri nümayəndə heyətləri iştirak ediblər.**

İclas iştirakçılarını salamlayan vergilər naziri Fazil Məmmədov komissiyanın 2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış «Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş»ə əsasən yaradıldığını və ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələr üzrə inkişafına xidmət edəcəyini bildirib. Qeyd olunub ki, iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından keçən dövr ərzində dövlət başçılarının qarşılıqlı səfərləri həyata keçirilib, bir neçə dəfə yüksək səviyyədə görüşlər olub, ölkələrimizin əlaqələri ilə bağlı 20-dək müqavilə imzalanıb. Bildirilib ki, ölkələrimiz arasında 2016-cı ildə ticarət dövriyyəsinin həcmi 284,7 mln. ABŞ dolları təşkil edib ki, bunun da 51,2 mln. dolları idxalın, 233,5 mln. dolları isə ixracın payına düşüb. 2017-ci ilin yanvar-sentyabr ayları üzrə ticarət dövriyyəsi 105 mln. ABŞ dolları həcmində olub.

Komissiya qarşısında duran mühüm istiqamətlərdən birinin iqtisadi əlaqələrin genişləndirilməsinə dəstək verilməsi olduğunu deyən F.Məmmədov aparılan danışıqların, əldə olunan razılaşmaların və imzalanan sənədlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına zəmin yaradacağına əminliyini ifadə edib. O, Azərbaycan və Xorvatiya arasında iqtisadi əməkdaşlığın genişlənməsində biznes əlaqələrinin mühüm rol oynadığını bildirərək, indiyədək hər iki ölkədə işgüzar dairələr arasında birbaşa təmasların inkişafı baxımından əhəmiyyət kəsb edən 4 biznes forumun keçirildiyini diqqətə çatdırıb. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə böyük töhfələr verə biləcək bir çox perspektivli sahələr olduğunu vurğulayan vergilər naziri son illər Azərbaycanda müxtəlif yeni sənaye parklarının yaradıldığını və bu parklarda investorlar üçün cəlbedici şərtlərin, o cümlədən vergi güzəştlərinin mövcud olduğunu komissiya üzvlərinin diqqətinə çatdırıb.



> Azərbaycan və Xorvatiya arasında sənaye, energetika, nəqliyyat, idman, turizm, təhsil, xüsusilə informasiya texnologiyaları sahəsində mövcud potensialı reallaşdırmaq üçün geniş imkanlar mövcuddur



Energetika sahəsində əməkdaşlığın önəmini vurğulayan F.Məmmədov bildirib ki, Xorvatiya Azərbaycan qazının Avropaya çatdırılmasını nəzərdə tutan Transadriatik Qaz Kəməri (TAP) layihəsinin həyata keçirilməsində maraqlıdır. Azərbaycan eyni zamanda həm TAP, həm də İon-Adriatik qaz kəmərlərinin tikintisi üzrə qarşılıqlı anlaşma, dəstək və əməkdaşlıq haqqında memorandum imzalayan dövlətlərdən biridir. Qeyd olunub ki, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri tamamlanaraq İon-Adriatik kəməri ilə bir şəbəkəyə qoşulmaqla gələcəkdə Azərbaycan təbii qazının Balkan ölkələrinə nəqlinə nail olunacaq.

Səmimi qəbul üçün Azərbaycan tərəfinə təşəkkürünü bildirən Martina Daliç ikitərəfli əlaqələrin daha da genişləndirilməsi istiqamətində səy göstərəcəklərini vurğulayaraq, qarşılıqlı maraqlar və dostluq prinsiplərinə əsaslanan əməkdaşlığa açıq olduqlarını qeyd edib. O, iki ölkə arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişaf etdiyini, iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın ilk iclasının müxtəlif sahələrdə uğurlu əməkdaşlığın daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirib ki, Azərbaycan və Xorvatiya arasında sənaye, energetika, nəqliyyat, idman, turizm, təhsil, xüsusilə informasiya texnologiyaları sahəsində mövcud potensialı reallaşdırmaq üçün geniş imkanlar mövcuddur.

İclasda iki ölkə arasında bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi və daha da dərinləşdirilməsi məsələləri müzakirə edilib. Tərəflər siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində ciddi irəliləyişə nail olunduğunu, əlaqələrin inkişaf etdirilməsi üçün geniş hüquqi baza yaradıldığını bildirərək, gələcək əməkdaşlıq sahələrini genişləndirmək məqsədilə kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma və əczaçılıq sahələri üzrə əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər.

Sonda Azərbaycan ilə Xorvatiya arasında iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın 1-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədov və Xorvatiya Respublikası Baş nazirinin müavini, iqtisadiyyat, sahibkarlıq və peşə naziri Martina Daliç imzalayıblar.

İclas çərçivəsində Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədov və Xorvatiya Respublikası Baş nazirinin müavini, iqtisadiyyat, sahibkarlıq və peşə naziri Martina Daliçin təkbətək görüşü də keçirilib. Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə perspektivləri müzakirə olunub, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vergilər naziri Ağdaşda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Noyabrın 24-də vergilər naziri Fazil Məmmədov Ağdaş şəhərində Ağdaş, Göyçay, Qəbələ, Oğuz və İsmayıllı rayonlarından olan vətəndaşları qəbul edib. Qəbul zamanı Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib.

Vətəndaşlar tərəfindən qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını ifadə ediblər.

# Banklararası xidmət haqları aşağı salınır

Azərbaycan Mərkəzi Bankı (AMB) ölkənin milli ödəniş sistemi infrastrukturunun təkmilləşdirilməsi, istifadə effektivliyinin yüksəldilməsi və iqtisadiyyatda nağdsız ödənişlərin çəkisinin artırılması istiqamətində tədbirlərini davam etdirir. Bununla bağlı həyata keçirilən sistemli islahatların nəticəsi kimi, emissiya olunan ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə məlumatların emalı prosesinin ölkə daxilində həyata keçirilməsi, ölkədaxili kart əməliyyatları üzrə banklararası xidmət haqlarının bazar tələblərinə uyğun çevik tənzimlənməsi, kart infrastrukturu istifadəçilərinin xərclərinin aşağı salınması imkanının yaradılması məqsədilə AMB tərəfindən «Banklararası Kart Mərkəzi» (BKM) yaradılmışdır.

AMB-nin mətbuat xidmətindən verilən məlumata görə, növbəti addım kimi, BKM üzərindən ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə «interçeync»in (banklararası qarşılıqlı xidmət haqlarının) aşağı salınması üçün Azərbaycan Banklar Assosiasiyasının, kart-prosessinq mərkəzlərinin və bankların nümayəndələri ilə qarşılıqlı müzakirələr aparılmış və ümumi razılığa gəlinmişdir. İnterçeync - banklararası ödəniş kartları ilə əməliyyatların qəbulu üzrə ödənilən qarşılıqlı xidmət haqqıdır. Satış əməliyyatları üzrə təsərrüfat subyektinə xidmət göstərən bank tərəfindən ödəniş kartı sahibinin bankına ödənilən xidmət haqqının əsas komponentini təşkil edir. Ödəniş kartları vasitəsilə nağdsız qaydada aparılan kart əməliyyatları üzrə tətbiq edilən interçeyncin aşağı salınması nağdsız ödənişlərdə təsərrüfat subyektlərinin xərclərinin azalmasına, bununla da nağdsız ödənişlərə maraqların artmasına və nağdsız dövriyyənin genişləndirilməsinə təkan verir.

> Kart infrastrukturu istifadəçilərinin xərclərinin aşağı salınması imkanının yaradılması məqsədilə AMB tərəfindən «Banklararası Kart Mərkəzi» yaradılıb

Qarşılıqlı razılığa əsasən, interçeync premial olmayan (Visa Electron, Visa Classic və Maestro, Debit MasterCard Standard və MasterCard Standard) ödəniş kartı məhsulları üzrə bazarın tələbinə uyğun olaraq dəyişdirilmişdir. Mobil telefon haqları üzrə interçeync 26% azaldılaraq 1%, ərzaq mağazaları və supermarketlər üzrə 61% azaldılaraq 0,5%, aptek və dərman məhsulları üzrə 78% azaldılaraq 0,3%, avtomatlaşdırılmış yanacaqdoldurma məntəqələri üzrə 78,5% azaldılaraq 0,3%, e-ticarət əməliyyatları üzrə 16% azaldılaraq 1,3% həcmində, nəqliyyat və dövlət ödənişləri üzrə isə 0,1% səviyyəsində müəyyənləşdirilmişdir.

**AYTƏN**

# Konservativ siyasət davam etdiriləcək

Milli Məclisin plenar iclasında «2018-ci il dövlət büdcəsi haqqında» qanun layihəsinin müzakirəsi zamanı Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib ki, manatın məzənnəsinin sabitliyi gələn il də diqqət mərkəzində olacaq, valyuta bazarında sabitlik qorunacaq. Qeyd edilib ki, cari ildə strateji ehtiyatlar 12 faiz, Mərkəzi Bankın ehtiyatları 31 faiz artıb. Ölkənin valyuta ehtiyatlarına qənaət edilib: «Hazırda bank aktivlərinin 20 faizdən çoxunu likvid aktivlər təşkil edir. Kredit portfelində aktivlik müşahidə olunmur. Mərkəzi Bankın sterilizasiya alətlərinə ehtiyac çoxdur».

# Azad ticarət zonası ixracı stimullaşdıracaq

2018-ci ildə ölkəmizdə azad iqtisadi zonaların (AİZ) istifadəyə verilməsi nəzərdə tutulur. Bu məqsədlə artıq Bakı Beynəlxalq Dəniz Ticarət Limanında ilk istehsal müəssisəsinin fəaliyyətə başlaması üçün lazımi infrastruktur yaradılıb. AİZ-in yaradılması ilə bağlı hazırlanmış tədbirlər planına uyğun olaraq, işlərin böyük bir hissəsi icra edilib. Liman kompleksinin akvatoriya hissəsinə aid olan qurğuların tikintisinin bu ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Layihəyə əsasən, 2018-ci ilin birinci rübünün sonunadək anbarlar, yardımçı binalar, digər əlaqəli infrastruktur obyektləri inşa olunacaq. Gələn ilin ikinci yarısınadək digər tikinti-quraşdırma işlərinin tamamlanması da planlaşdırılır.

Bu işlərin həyata keçirilməsi nəticəsində AİZ tipli xüsusi iqtisadi zona fəaliyyətə başlayacaq. Dəniz limanının birinci fazası üzrə illik yükaşırma qabiliyyətinin 15 milyon tona çatacağı gözlənilir.

Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, Azərbaycanda AİZ-in yaradılması iqtisadi artıma nail olunması və yeni investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: «AİZ çərçivəsində sənaye və yüksək texnologiyalar parklarının yaradılması, maşınqayırma, nəqliyyat, enerji, tikinti sənayesi müəssisələrinin inşa olunması ticarət zonasına marağı artırır. Azərbaycan hökuməti bu cür iqtisadi vasitələrlə ölkəmizdə sahibkarlığın və iqtisadiyyatın inkişafını sürətləndirmək niyyətindədir. AİZ modelinə əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində nəqliyyat və logistika infrastrukturu qurulacaq, neft-kimya və farmasevtik klasterlər yaradılacaq, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması kimi işlər görüləcək. Layihənin həyata keçirilməsi iqtisadiyyatın davamlı inkişafına və rəqabət qabiliyyətinin artırılmasına, logistika və nəqliyyat mərkəzi kimi Azərbaycanın mövqeyinin gücləndirilməsinə və çoxşaxəli nəqliyyat infrastrukturunun formalaşmasına şərait yaradacaq. Bütün bunlar ölkədə yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun təmin edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir».

Millət vəkilinin sözlərinə görə, bu cür ərazilər yerli və xarici sahibkarlar üçün əlverişli iqtisadi şəraitə malik olan və digər ərazilərə münasibətdə xüsusi hüquqi rejimli məhdud sahələrdir. Ərazidə sadələşdirilmiş gömrük və vergi prosedurları həyata keçirilir, istehsal edilən mallar milli gömrük xaricində olan obyektlər kimi qəbul edilir və bu səbəbdən də adi gömrük nəzarətinə və vergitutmaya cəlb olunmur. Azad ticarət zonalarında iqtisadi proseslərə dövlət müdaxiləsinin miqyası azalır, həmin ərazidə fəaliyyət göstərən şirkətlərin bu və ya digər formada ölkə qanunvericiliyində daha az öhdəlikləri olur: «Son illərdə ölkəmizdə sahibkarlığı dəstəkləmək və fəaliyyətini stimullaşdırmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və qeyri-neft sənayesinin ixracının stimullaşdırılması məqsədilə güzəştli vergi rejimi həyata keçirilir. Azad ticarət zonasında fəaliyyət göstərən yerli və xarici investorları daha da həvəsləndirmək, bu sektora yeni investorları cəlb etmək məqsədilə ötən il vergi qanunvericliyində müvafiq dəyişikliklər aparılıb.Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, xüsusi tipli azad ticarət zonalarında fəaliyyət göstərən şəxslər əmlak və torpaq vergisini ödəməkdən azaddırlar. Eyni zamanda, sahibkarlar bu ərazidə bir sıra sənaye mallarının təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə görə vergilərdən azad olunub».

AİZ ərazisində tətbiq olunan vergi güzəştləri də investisiyaların cəlb edilməsi baxımından əlverişli hesab olunur. İqtisadçı Ruslan Atakişiyev hesab edir ki, Bakı Dəniz Ticarət Limanı hazırda Azərbaycanın tranzit imkanlarının dünyaya təqdim olunması baxımından mühüm strateji məkandır və bu sahədə səmərəli vergi-fiskal siyasətin həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan malların 3 il müddətinə yol vergisindən azad olunmasını nəzərdə tutur ki, bu da AİZ-dəki limandan daşınmaların artmasını stimullaşdıracaq. Bu siyasət ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşınma xərclərinin aşağı salınmasında və onların ixrac imkanlarının yaxşılaşmasında mühüm rol oynayacaq.

**E.CƏFƏRLİ**

# Biznes mühitinin yaxşılaşdırılması diqqət mərkəzində olacaq

**İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycanın «2018-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri» hazırlanıb. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası və Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində müəyyən edilmiş hədəf və prioritetlər əsasında hazırlanmış sənəddə dünya iqtisadiyyatının inkişaf meyilləri, ölkənin sosial-iqtisadi inkişafı üzrə hazırkı çağırışlar, inkişaf konsepsiyaları və dövlət proqramları nəzərə alınıb.**

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, inkişaf konsepsiyasının ali məqsədi mövcud imkan və resurslardan səmərəli istifadə etməklə dayanıqlı iqtisadi inkişafa və əhalinin layiqli həyat səviyyəsinə nail olmaqdır. Sənəddə ölkə iqtisadiyyatının fiskal dayanıqlığının gücləndirilməsi və davamlı monetar siyasətin aparılması ilə makroiqtisadi sabitliyin təmin olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, biznes mühitinin yaxşılaşdırılmasının davam etdirilməsi, dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi, iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi, regionların davamlı və tarazlı inkişafının təmin edilməsi, insan kapitalına diqqətin artırılması, əhalinin həssas qruplarının sosial təminatının gücləndirilməsi və s. əsas prioritetlər kimi müəyyənləşib.

**Azad biznesin inkişafını daha da gücləndirmək məqsədilə sahibkarların fəaliyyətinə müdaxilələrin qarşısı alınacaq və belə hallara yol verməyə cəhd edən dövlət qurumlarının nümayəndələri barədə ən sərt tədbirlər görüləcək**

Qarşıdakı illərə aid sistemli islahatların başlıca iqtisadi-sosial prioritetləri bunlar olacaq:

- biznesin rəqabətliliyinin artırılması;
- maliyyə-bank sektorunun sağlamlaşdırılması;
- valyuta bazarında gözləntilərin səmərəli idarə olunması;
- makroiqtisadi sabitliyə təhdid yaradan xarici iqtisadi şokların yaşanmaması üçün koordinasiyalı idarə olunan maliyyə siyasətinin həyata keçirilməsi;
- inflyasiyanın birrəqəmli həddə saxlanmasına nail olmaq üçün əlavə tədbirlərin görülməsi;
- iqtisadi artımın təmin olunması.

Neft sektorunun azaldıcı, qeyri-neft sektorunun artırıcı təsirləri nəzərə alınmaqla 2018-ci ildə ÜDM-in 1,5%, növbəti illərdə isə orta hesabla 3,5% artacağı proqnozlaşdırılır. Ölkədə yerli və xarici investisiya qoyuluşlarının artırılması üçün cəlbedici sərmayə mühitinin yaradılması istiqamətində də tədbirlər görüləcək. Növbəti ildə əsas kapitala investisiya qoyuluşlarının 15,9 mlrd. manat, xarici investisiyaların 7,7 milyard manat, daxili investisiyaların 8,2 milyard manat olacağı proqnozlaşdırılır. Neft sektoruna 6,4 mlrd. manat, qeyri-neft sektoruna isə 9,5 mlrd. manat investisiya yatırılacağı gözlənilir. Növbəti illərdə də investisiyaların artacağı nəzərdə tutulur.

Ölkə iqtisadiyyatının prioritet sahəsi olan qeyri-neft sektorunun artımı 2018-ci ildə 2,9%, növbəti illərdə isə orta hesabla 3%-dən yuxarı proqnozlaşdırılır.

Ş.Mustafayevin sözlərinə görə, dövlət tərəfindən biznes mühitinin yaxşılaşdırılması ilə bağlı yürüdülən siyasət növbəti illərdə də davam etdiriləcək. Azad biznesin inkişafını daha da gücləndirmək məqsədilə sahibkarların fəaliyyətinə müdaxilələrin qarşısı birmənalı şəkildə alınacaq və belə hallara yol verməyə cəhd edən dövlət qurumlarının nümayəndələri barədə ən sərt tədbirlər görüləcək. İş adamlarına qarşı süni maneələr yaratmaq istəyən qurumlarla bağlı monitorinqlər aparılacaq.

Qeyd olunub ki, «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Qanunun tətbiqinin daha 3 il müddətinə uzadılması islahatların ən mühüm uğurlarından biri hesab edilir. Təhlillər göstəririr ki, institusional tədbirlər milli biznesin səmərəliliyini daha da yüksəldir. Əvvəlki 24 ay ərzində aparılmış yoxlamaların sayı 117 mindən çox olduğu halda, yoxlamaların dayandırılmasından ötən 24 ay ərzində, vergi yoxlamaları istisna olmaqla, cəmi 127 yoxlama keçirilib. Sahibkarlıq subyektlərinə lisenziyaların və icazələrin verilməsində və digər sahələrdə də əhəmiyyətli dəyişikliklər baş verib. Lisenziyalaşdırma prosesinin sadələşdirilməsi və şəffaflığın təmin olunması nəticəsində İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində 2017-ci ilin 10 ayı ərzində 4700-ə yaxın müddətsiz lisenziya verilib. Vergi-gömrük-tarif siyasətində, dövlət satınalmaları, idxalın məhdudlaşdırılması, ixracın təşviqi və stimullaşdırılması istiqamətində də əhəmiyyətli müsbət nəticələr əldə olunub. İqtisadiyyat naziri xüsusi olaraq vurğulayıb ki, Azərbaycanın son 2 ildə apardığı müasir çağırışlara uyğun əhatəli, sistemli və yeni islahatlar xarici iqtisadi təhlil mərkəzləri, nüfuzlu beynəlxalq tədqiqat institutları tərəfindən də müsbət qiymətləndirilib. Dünya İqtisadi Forumunun 2017-2018-ci ilə dair «Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycan 35-ci yerə yüksəlib və MDB-də liderliyini qoruyub saxlayıb. «Doing Business 2018» hesabatında isə respublikamız ötən illə müqayisədə 8 pillə irəliləyib, Avropa və Mərkəzi Asiya regionunda 4 və daha çox islahat aparan 3 ölkədən biri olub.

2016-cı ildən tətbiq olunan investisiya təşviqi mexanizmi də milli sahibkarlığın istehsal və ixrac qabiliyyətinin artmasına mühüm təsir göstərib. Ümumilikdə, indiyədək 196 sahibkara 216 investisiya təşviqi sənədi verilib, 8 iqtisadi rayonu əhatə edən layihələrə təqribən 1,8 milyard manat həcmində investisiya yatırılıb, investisiya təşviqi sənədi almış 100-ə yaxın müəssisə artıq fəaliyyət göstərir, digərləri isə gələn ilin sonuna qədər fəaliyyətə başlayacaq. İxrac təşviqi mexanizminin işə düşməsi sayəsində sahibkarların maliyyə imkanları yaxşılaşıb, ixracqabiliyyətli yeni məhsulların istehsalı və çeşidi genişlənib. Nəticədə xarici ölkələrə qeyri-neft məhsullarının ixracı artaraq, təxminən 1 milyard dollara yaxın təşkil edib. Qeyd olunub ki, dövlət başçısının imzaladığı «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» fərmana uyğun olaraq, təşviq sənədinin verilmə müddətinin azaldılması və prosedurların daha da asanlaşdırılması nəzərdə tutulur. Məqsəd ixrac təşviqi siyasətini gücləndirməklə milli istehsalı və ixracı stimullaşdırmaq, milli ixracatçıları yeni bazarlara çıxmağa həvəsləndirməkdir.

**Elbrus CƏFƏRLİ**

# Başlıca hədəf milli iqtisadiyyatın inkişaf etdirilməsidir

**Milli iqtisadiyyatın əsas sahələri üzrə strateji yol xəritələrində müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi və vergi islahatları fonunda vergi inzibatçılığının bütün sahələrinin təkmilləşdirilməsi məqsədilə qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində mühüm addımlar atılmaqdadır.**

Vergi Məcəlləsində və bir sıra normativ-hüquqi aktlarda edilmiş dəyişikliklər əsasən vergi ödəyicilərinin hüquqlarının və vergi potensialının genişləndirilməsini, eləcə də ölkə iqtisadiyyatına investisiyaların cəlb olunmasını əhatə edir. Beynəlxalq təcrübədən istifadə edilməklə aparılan islahatlar çərçivəsində Vergi Məcəlləsinə transfer qiymətinin tətbiqi, vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi, könüllü vergi açıqlaması kimi müddəalar daxil edilmişdir. Kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə vergi yoxlamalarının sayının optimallaşdırılması, eləcə də sahibkarlara dəstək məqsədilə Vergilər Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir: yeni strukturlar müəyyənləşdirilərkən iri, orta və kiçik vergi ödəyiciləri təsnifatı nəzərə alınmış və qruplaşdırılan vergi ödəyicilərinə fərdi yanaşma prinsipi tətbiq olunmuşdur. Orta sahibkarlara münasibətdə daha çox partnyorluq münasibətlərinə diqqət yetirilməsi, iri vergi ödəyiciləri ilə mütəmadi iş aparılması əsas hədəf kimi müəyyənləşdirilmişdir. Kiçik və orta sahibkarlığın inkişafına dəstək kimi, yoxlamaların sayı əhəmiyyətli dərəcədə azaldılmış, bu sahənin təmsilçiləri ilə partnyorluq əlaqələrinin qurulması üçün vergi partnyorluğu strukturları yaradılmışdır.

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»nin icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən qəbul edilmiş Tədbirlər Planında nəzərdə tutulmuş səmərəli vergi sisteminin təşviqi üzrə 2017-ci il ərzində görülmüş işlərin müzakirəsi keçirilmişdir. Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva bildirmişdir ki, kiçik və orta sahibkarlıq subyektlərinin üzləşdiyi problemlərlə yaxından tanış olmaq, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində sahibkarların rəy və təkliflərini müzakirə etmək üçün silsilə görüşlər keçirilir. Vergilər Nazirliyinin və ölkəmizin xarici ölkələrdəki səfirlik, daimi nümayəndəlik və konsulluqlarının rəsmi internet səhifələrində Azərbaycan və ingilis dillərində «Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverişli vergi mühiti» başlığı altında materiallar yerləşdirilmişdir.

Pərakəndə ticarət və ictimai-iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən malların təqdim edilməsi üzrə nağdsız əməliyyatlara vergi güzəştlərinin tətbiqi və vergi ödəyicilərində keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində onlara hesablanmış vergi və maliyyə sanksiyalarının ödəmə müddətindən tez ödənilməsinə görə maliyyə sanksiyaları üzrə güzəştlərin tətbiqi mexanizmləri işlənib hazırlanmışdır. Bununla yanaşı, istehsal sahəsi, daşınmaz əmlak və işçi qüvvəsi ilə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, digər regionlarda ixrac yönümlü məhsulların istehsalı ilə məşğul olan ixracatçılara, eləcə də müəyyən edilmiş şərtlər daxilində özəlləşdirilən dövlət müəssisələrinin əmlak vergisi üzrə növbəti üç il üçün vergi güzəştlərinin tətbiqi ilə əlaqədar mexanizmlər də işlənilmişdir. İşçi qrup tərəfindən ölkənin sosial-iqtisadi siyasəti nəzərə alınmaqla vergi güzəştlərinin və azadolmalarının monitorinqinin aparılması, onların səmərəliliyinin müəyyən edilməsi, eləcə də vergi qanunvericiliyində müvafiq dəyişikliklərlə bağlı layihə hazırlanmışdır. Bu sənədlərdə sabit vergi məbləği haqqında qəbzin əhatə dairəsinin genişləndirilməsi, eləcə də hüquqi şəxslərin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi, məlumat dəyişikliyi prosedurunun sadələşdirilməsi kimi məsələlər nəzərdə tutulmuşdur.

**Yeni strukturlar müəyyənləşdirilərkən iri, orta və kiçik vergi ödəyiciləri təsnifatı nəzərə alınmış və qruplaşdırılan vergi ödəyicilərinə fərdi yanaşma prinsipi tətbiq olunub**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, milli iqtisadiyyat perspektivində planlaşdırılmış biznes mühitinin yaxşılaşdırılması istiqaməti üzrə vergi islahatları ilə bağlı xeyli konseptual işlər görüləcək: «Burada ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda qeyri-neft sektorundan əldə edilən gəlirlər bütövlükdə büdcənin cari xərcləri ilə tarazlaşdırılmalı, büdcənin cari xərclərini qarşılamaq imkanında olmalıdır. Bu baxımdan, nəticə əsaslı büdcə nöqteyi-nəzərindən vergi islahatları üçün ümumi konseptual əsaslar müəyyən edilmişdir. Dünya Bankı, Avropa İttifaqı və digər nüfuzlu qurumlar Azərbaycanın vergi islahatlarını çox yüksək qiymətləndirirlər. Vergi islahatları özü bütövlükdə Azərbaycanda digər islahat istiqamətlərindən - fiskal və monitar siyasət, real sektorda aparılan işlərlə bilavasitə bağlıdır».

**Rəşad SADIQOV**

# Vergilər Nazirliyi sahibkarlarla dialoqa və qarşılıqlı əməkdaşlığa böyük önəm verir

**Noyabrın 24-də Vergilər Nazirliyinin Tədris Mərkəzində Şamaxı rayonu ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirilib**

Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri - Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov ötən ilin sonunda dövlət başçısının müvafiq fərmanına uyğun olaraq hazırlanmış 12 Strateji Yol Xəritəsi barədə iştirakçılara geniş məlumat verib, bildirib ki, sənəddə nəzərdə tutulan strateji hədəflərə çatmaq və yeni iqtisadi inkişaf modelinə keçidlə bağlı dövlət başçısı tərəfindən müəyyənləşdirilmiş konkret vəzifələrin icrasını təmin etmək, ölkədə sahibkarlığın və investisiyaların təşviqi, ixracın stimullaşdırılması, biznesin dəstəklənməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə vergi sistemində, vergi qanunvericiliyi və inzibatçılığı sahələrində islahatlar daha da sürətləndirilib. Qeyd olunub ki, Vergilər Nazirliyi kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə qəbul edilən qərarların səmərəliliyinin və şəffaflığının təmin edilməsi üçün silsilə tədbirlər həyata keçirir, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi ilə bağlı iş adamlarının qarşılaşdıqları problemləri və təklifləri öyrənir, onların həlli istiqamətində məqsədyönlü işlər görür. Sahibkarların maarifləndirilməsi və məlumatlandırılmasını, eləcə də təbliğat işinin çeşidinin və keyfiyyətinin artırılmasını daim diqqətdə saxlayan nazirlik tərəfindən kiçik sahibkarlar üçün ünvanlı xidmətlərin sahə müvəkkilliyi prinsipi əsasında aparılması, bu işə ictimaiyyətin aktiv üzvlərinin, o cümlədən vergi veteranları, vergi dostları, ziyalılar, gənclər, sahibkarların ictimai təşkilatları və vergi agentlərinin cəlb olunması, normativ sənədlərin, uçotun sadələşdirilməsi, nəzarət tədbirlərinin minimuma endirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Bildirilib ki, təkcə bu ilin on ayı ərzində vergi ödəyicilərinin elektron qutularına bəyannamələrin təqdim olunması, vergilərin ödənilməsi ilə bağlı 3 milyondan çox bildiriş, mobil telefonlarına isə 2 milyondan artıq SMS göndərilib. Vergilər Nazirliyi vergi ödənişinin bütün mərhələlərində vergi ödəyicilərini məlumatlandırmağa, maarifləndirməyə xüsusi önəm verir. Hər bir vergi ödəyicisinin istənilən məlumatı istənilən zaman ala bilməsi imkanı bu istiqamətdə görülən işlərin əsas prinsiplərindəndir.

Vergi ödəyicilərinin diqqətinə çatdırılıb ki, Vergilər Nazirliyinin çeşidli və əhatəli elektron xidmətlərindən regionda fəaliyyət göstərən sahibkarlar maksimum yararlanmalıdırlar. Təəssüf ki, bəzi hallarda vergi ödəyiciləri öz elektron qutularına göndərilən bildirişləri açıb oxumurlar. Bu isə ilk növbədə onların özlərinin ziyanına olur: bəyannamələrin təqdim edilməsi, vergilərin ödənilməsi gecikdirilir bu da nəticə etibarilə cərimələrə, maliyyə sanksiyalarına gətirib çıxarır. Buna görə də vergi ödəyiciləri öz işlərinə daha məsuliyyətlə yanaşmalıdırlar.

Tədbirdə çıxış edən Tədris Mərkəzinin rəisi Əli Həsənov mərkəzin həyata keçirdiyi maarifləndirmə tədbirləri haqqında məlumat verərək bildirib ki, təkcə region sahibkarları üçün deyil, ölkənin ən müxtəlif bölgələrində fəaliyyət göstərən iş adamları, bələdiyyə üzvləri, mühasiblər, auditorlar və digər müvafiq peşə sahiblərinin iştirakı ilə təşkil olunan təlimlər, maarifləndirici tədbirlərdə indiyədək minlərlə insan iştirak edib. Belə görüşlər zamanı onların da rəy və təklifləri diqqətlə dinlənilib, nəzərə alınması üçün Vergilər Nazirliyinin aidiyyəti strukturlarına təqdim olunub. Gələcəkdə də silsilə tədbirlərin davam etdirilməsi nəzərdə tutulub.



**Hər bir vergi ödəyicisini maraqlandıran, narahat edən məsələ ciddi şəkildə araşdırılır, həlli yolları ilə bağlı geniş izahat işləri aparılır**

Vergilər Nazirliyinin 4 saylı Ərazi Vergilər İdarəsinin rəisi Vüsal Bayramov idarənin əhatə dairəsinə daxil olan rayonlarda əsasən kənd təsərrüfatı sahəsində çalışan sahibkarların fəaliyyət göstərdiyini və onlara dövlət tərəfindən bir sıra vergi güzəştlərinin tətbiq olunduğunu vurğulayıb. Bildirilib ki, vergi ödəyiciləri ilə görüşlər zamanı onlara hüquq və vəzifələri haqqında məlumatlar verilir, ünvanlı xidmətlərlə bağlı maarifləndirici təlimlər keçilir. Hər bir vergi ödəyicisini maraqlandıran, narahat edən məsələ ciddi şəkildə araşdırılır, həlli yolları ilə bağlı geniş izahat işləri aparılır. Vergi ödəyicilərinin nəzərinə çatdırılıb ki, bəyannamələrin təqdim edilməsini son günə saxlamaq müəyyən gərginliyə səbəb olur, bununla vergi ödəyiciləri həm özlərinin, həm də vergi orqanlarının fəaliyyətini çətinləşdirirlər. Belə olan halda, elektron sistemdə ciddi yüklənmələr qeydə alınır ki, bu da müəyyən texniki problemlərin yaranmasına gətirib çıxarır. Problemin yeganə çıxış yolu isə vergi ilə bağlı bütün işlərin vaxtlı-vaxtında və qanunvericiliyə ciddi şəkildə əməl etməklə həyata keçirilməsidir.

Sonra Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin direktoru Əvəz Quliyev Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, bu dəyişikliklərin mahiyyəti, kənd təsərrüfatı sahəsində vergi qanunvericiliyindəki yeni anlayışlar haqqında geniş məlumat verib. Nazirliyin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Xidmətin təşkili idarəsinin direktoru Azər Şirinov isə vergi ödəyicilərinə göstərilən xidmətlər, onların tətbiqinə başlanılması tarixləri və əsas mahiyyəti haqqında təqdimatla çıxış edib. Tədris Mərkəzinin əməkdaşları - Fariz Yadigarovun əmək münasibətləri və Azər Mustafayevin ictimai iaşə və pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları barədə təqdimatlarından sonra hər iki mövzu ətrafında müzakirələr keçirilib və vergi ödəyicilərini maraqlandıran suallar cavablandırılıb.

Kənd Təsərrüfatı fəaliyyəti ilə məşğul olan sahibkarlar Vergi Məcəlləsində bu sahə ilə bağlı yeni anlayışların bəzi detallarının izah edilməsini və hansı mərhələlərdə, hansı işlərin görülməsi zamanı nağd və ya nağdsız əməliyyatların aparılması ilə maraqlanıblar. Bununla bağlı vergi ödəyicilərinə qanunvericiliyin tələbləri bir daha izah edilərək bildirilib ki, nağdsız ödənişlərə keçid müasir dövrün tələbidir və hər kəs qanunlarda bu məsələ ilə bağlı müddəalara ciddi riayət etməlidir.

Müzakirələr zamanı sahibkarlar bəyannamə formalarının doldurulmasında müəyyən çətinliklərlə üzləşdiklərini, elektron xidmətlərdə bir sıra texniki detalların asanlaşdırılması ilə bağlı təkliflərini bildiriblər. Vergilər Nazirliyinin rəsmi şəxsləri iş adamlarının qaldırdıqları məsələlərin qısa zaman kəsiyində həll edilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıblar. Bildirilib ki, regionlardakı vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətindən və buradakı özünəxidmət kompüterlərindən geniş şəkildə yararlanmaq lazımdır. Belə olduğu halda, onların qarşılaşdıqları bütün texniki problem burada çalışan əməkdaşların köməyi ilə tez bir zamanda aradan qaldırılır. Bildirilib ki, öz fəaliyyətini qanunvericiliyə uyğun şəkildə quran hər bir vergi ödəyicisi hər hansı çətinliklə üzləşərkən çəkinmədən birbaşa Vergilər Nazirliyinin müvafiq qurumlarına müraciət etməklə qarşılaşdığı problemlərin həllinə asanlıqla nail ola bilər.

**R. SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



**Samirə Musayeva**

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Sumqayıt şəhərində yerləşən və xüsusi mülkiyyətimdə olan mənzilə görə nə qədər əmlak vergisi ödəməliyəm?***

Vergi Məcəlləsinin 197.1.1-ci maddəsinin müddəalarına əsasən, rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

Vergi Məcəlləsinin 198.1.1-ci maddəsinin müddəalarına görə, fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə, bina Sumqayıt şəhərində yerləşdikdə, 0,3 manat tətbiq edilməklə hesablanır.

Vergi Məcəlləsinin 200.1-ci maddəsinin müddəalarına uyğun olaraq, fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır.

***Qeyd olunanlara əsasən:***

Fiziki şəxsin xüsusi mülkiyyətində olan və Sumqayıt şəhərində yerləşən yaşayış evinə görə əmlak vergisi həmin evin ümumi sahəsinin 30 kvadratmetrindən artıq olan hissəsinin hər kvadratmetrinə 0,3 manat tətbiq edilməklə onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahəsi 30 kvadratmetrədək olduqda əmlak vergisi hesablanmır.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin sentyabr ayında Türkiyə Azərbaycandan **519 milyon** kubmetr təbii qaz idxal edib və nəticədə respublikamız qardaş ölkənin ən çox təbii qaz idxal etdiyi ikinci ölkə olub.
- «Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı»nda 2025-ci ilədək yaş barama istehsalı həcminin **6 min** tona çatdırılması nəzərdə tutulur.
- 2017-ci il noyabrın 27-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə **191 min 379** ton məhsul təhvil verilib.
- Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən yaradılan «www.data.gov.az»ın yeni versiyasında dövlət orqanlarının 650-dən çox məlumatı vətəndaşlar üçün açıq elan edilib.
- Son 10 ildə Avropa İttifaqına üzv ölkələrin Azərbaycana yatırdığı investisiyaların həcmi **21 milyard** ABŞ dolları təşkil edib.
- Hazırda Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir və bu ölkə tərəfindən əsas kapitala **496,9 milyon** ABŞ dolları həcmində investisiya qoyulub.

# Qanunsuz sahibkarlıqla məşğulolma faktları aşkar edilib

**Vergilər Nazirliyi yanında Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamenti tərəfindən Yasamal və Xətai rayonlarının ərazisində Vergi Məcəlləsinin 50.1.1-ci maddəsinə əsasən müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarında uçota durmayan şəxslərin aşkar olunması məqsədilə operativ vergi nəzarəti tədbirləri həyata keçirilib.**

Bu tədbirlər zamanı Yasamal rayonu, Yeni Yasamal D.Bünyadzadə və Ə.Əhmədov küçələrinin kəsişməsində və Əhməd Cəmil küçəsi, ev 66, mənzil 1 ünvanında yerləşən «Forte Fashion», habelə Xətai rayonu, Əhmədli ŞTQ, Sarayevo küçəsi 22A, məhəllə 2325 ünvanda yerləşən «Forte Fashion» və «Forte kids» adlı geyim mağazalarında vergi orqanında uçota alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti göstərilməsi faktları aşkar olunaraq Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada rəsmiləşdirilib.

Bununl yanaşı, D.Bünyadzadə və Ə.Əhmədov küçələrinin kəsişməsində yerləşən «Forte Fashion» geyim mağazasında 4 nəfər fiziki şəxsin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlanılmadan işəgötürən tərəfindən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi və 255.389 manat məbləğində malların uçotdan yayındırılması, Əhməd Cəmil küçəsi, ev 66, mənzil 1 ünvanında yerləşən «Forte Fashion» geyim mağazasında 8 nəfər fiziki şəxsin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlanılmadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması və 291.919 min manat məbləğində malların uçotdan yayındırılması, Xətai rayonu, Əhmədli ŞTQ, Sarayevo küçəsi 22A, məhəllə 2325 ünvanda yerləşən «Forte Fashion» geyim mağazasında 72.564 manat, «Forte kids» uşaq geyimləri mağazasında 57.394 manat məbləğində malların uçotdan yayındırılması halları müəyyən edilib.

Vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı vergi əməkdaşlarına öz xidməti vəzifələrini yerinə yetirməyə maneçilik törətməyə, mağazalarda çalışan işçiləri gizlətməyə cəhdlər olunub. Aparılmış araşdırmalar nəticəsində qeyd olunan təsərrüfat subyektlərində (obyektlərində) Vergilər Nazirliyi yanında Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamentində vergi ödəyicisi kimi uçota alınmış İmanov İman İlqar oğlunun sahibkarlıq fəaliyyəti göstərdiyi müəyyən edilib, həmin şəxsə aid olan, Bakı şəhəri Nəsimi rayonu, Hüseynbala Əliyev küçəsi, ev 34, mənzil 36 ünvanında yerləşən «Forte kids» geyim mağazasında da 3 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlanılmadan işlərin yerinə yetirilməsinə cəlb olunması və 82.000 manat məbləğində malların uçotdan yayındırıldığı aşkar edilib.

Aparılmış vergi nəzarəti tədbirləri zamanı «Forte kids» və «Forte fashion» əmtəə nişanı adı altında 5 obyektdən 4-də qanunsuz sahibkarlıq fəaliyyəti göstərildiyi, həmin obyektlərin ümumi sahəsinin 700 kvadratmetr, uçotdan gizlədilmiş malların dəyərinin 729.266 manat, əmək müqaviləsi bağlanılmadan işə cəlb olunmuş fiziki şəxslərin sayının isə 15 nəfər olduğu müəyyən edilərək, aşkarlanmış faktlar üzrə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər həyata keçirilib.

# Əmək münasibətləri ilə bağlı səyyar monitorinqlər keçirilir

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin («ASAN xidmət») Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən «Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı» tikinti şirkətlərində səyyar monitorinqlərin keçirilməsi davam etdirilir.

Bu barədə «ASAN xidmət»dən verilən açıqlamada bildirilir ki, monitorinqlərin keçirilməsində məqsəd tikinti sahəsində vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi və əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsidir. Məlumata əsasən, bu günədək mərkəz tərəfindən həyata keçirilən ümumilikdə 22 səyyar monitorinq Bakı şəhərində çoxmənzilli yaşayış binalarının inşası ilə məşğul olan 76 hüquqi və fiziki şəxsi əhatə edib. Monitorinqlərin keçirildiyi dövr ərzində 264 şəxsin əmək və ya xidməti (mülki) müqavilə olmadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması müəyyən edilib. Monitorinq nəticəsində aşkar olunmuş faktlarla bağlı müvafiq tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğuna məlumat verilib.

Açıqlamada bildirilir ki, dövlət orqanları tərəfindən tikinti şirkətləri ilə bağlı mərkəzə daxil olan məlumatlar əvvəlcə Analitik Monitorinq Sistemi vasitəsilə təhlil edilir və əsas yarandığı halda, mərkəzin səyyar monitorinq qrupu tərəfindən tikinti obyektlərində səyyar monitorinqlər aparılır.

Xatırladaq ki, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (on nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi 7 min manatdan 10 min manatadək miqdarda cərimə və ya 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi xəbərdarlıq edir ki, əmək müqavilələri elektron formada rəsmiləşdirilməli, əmək bildirişləri sistemində müqavilə qüvvəyə minmədən işçi tikinti ərazisində işə cəlb olunmamalıdır. Mərkəz tərəfindən monitorinqlər davam etdirilir və nəticələri mütəmadi olaraq açıqlanacaq.

# İqtisadi islahatlarda vətəndaş cəmiyyətinin rolu

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən «Azərbaycanda iqtisadi islahatlar: vətəndaş cəmiyyətinin rolu» mövzusunda «dəyirmi masa» keçirilib.

Tədbirdə «Azərbaycan Respublikasında yeni iqtisadi model quruculuğu» mövzusunda çıxış edən Mərkəzin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, ölkədə islahatların ən böyük uğuru onun dönməz xarakter almasındadır. Çünki təkcə dövlət qurumları deyil, cəmiyyətin bütün təbəqələri islahat prosesinin bütün həlqələrinə - hazırlanma, icra, monitorinq və kommunikasiyaya yaxından cəlb olunublar. Həyata keçirilən islahatlar nəticəsində milli iqtisadiyyatın qeyri-neft sektoru üzrə ixrac həcmi kifayət qədər artıb, qlobal rəqabətlilik və «Doing business» reytinqlərində irəliləyiş əldə olunub: «Əsas çağırışları hədəf alan islahatlar iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. 2018-ci ildə iqtisadi artımın bərpası yeni iqtisadi tsiklin başlanğıcı deməkdir. İndi əsas məsələ iqtisadi artım tempinin yüksək həddinə nail olmaq və davamlılığı təmin etməkdir. Bunun üçün rəqabət mühitinin daha da yaxşılaşdırılması, institusional və struktur islahatlarının davam etdirilməsi, təşviq mexanizminin gücləndirilməsi və maliyyə-bank sektorunda böhrandan çıxmaq üçün əldə olunmuş ilkin nəticələri möhkəmləndirmək lazımdır. İqtisadi islahatların ölkədə reallaşdırılan infrastruktur layihələri ilə ahəngdarlıq təşkil etməsi dayanıqlı inkişaf üçün şərtdir».

Görüşdə İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin prezidenti Sabit Bağırov «İqtisadi islahatlarda vətəndaş cəmiyyətinin rolu», «İqtisadi Resursların Öyrənilməsi» İctimai Birliyinin sədri Ruslan Atakişiyev «İqtisadi islahatlar: makroiqtisadi sabitlik və dayanıqlı inkişaf», «İqtisadi və Sosial İnkişaf Mərkəzi» İctimai Birliyinin sədri Vüqar Bayramov «İqtisadi islahatlar: fiskal dayanıqlıq», «İqtisadi Təşəbbüslərə Yardım» İctimai Birliyinin rəhbəri Azər Mehdiyev «İqtisadi islahatlar: biznes mühitinin təkmilləşdirilməsi» mövzularında məruzə ilə çıxış ediblər.

Sonra vətəndaş cəmiyyəti institutlarının nümayəndələrini maraqlandıran suallar cavablandırılıb. Tədbir iştirakçıları aparılan islahatlar prosesinin davamlılığı ilə maraqlanıblar. Vurğulanıb ki, vətəndaş cəmiyyəti institutlarının islahat prosesində yaxından iştirak etməsi üçün hərtərəfli imkan yaradılıb. Strateji yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələrinin ictimai müzakirələrinin təşkil olunması islahat prosesində vətəndaş iştirakçılığının təmin edilməsi və açıq hökumət prinsiplərinə uyğundur. Vətəndaş cəmiyyəti institutlarının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə birlikdə bu sahədə maarifləndirmənin artırılması istiqamətində fəaliyyət göstərməsi üçün geniş imkanlar var.

> **Strateji yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələrinin ictimai müzakirələrinin təşkil olunması islahat prosesində vətəndaş iştirakçılığının təmin edilməsi və açıq hökumət prinsiplərinə uyğundur**

Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni ölkədə iqtisadi islahatların davamlılığını təmin etmək üçün hərtərəfli kömək göstərməyə hazır olduqlarını bildirib: «Ötən il ictimai sektor, vətəndaş cəmiyyəti və iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən insanlar arasında müzakirələr aparılıb, ictimai dinləmələr edilib. Bütün nəticələr bir araya gətirilərək konsepsiya şəklində hazırlanıb. Ölkəmizi güclü dövlətə çevirmək istiqamətində önəmli fəaliyyətimizlə əlimizdən gələni edir, iqtisadi islahatlara öz töhfələrimizi verirməyə çalışırıq».

**FƏXRİYYƏ**

# Gənc sahibkarlara dövlət dəstəyi gücləndirilir

Gənclərin iş həyatına cəlb edilməsi, öz bizneslərini qura bilmələri üçün onlara əlverişli şəraitin yaradılması mühüm iqtisadi və ictimai əhəmiyyət kəsb edir. O da maraqlıdır ki, sahibkarlıqla məşğul olan gənclər iqtisadiyyatın innovativ sahələrinə daha çox meyil edirlər.

Bu gün ölkəmizdə innovativ sahibkarlığın stimullaşdırılması üçün özəl sektora xüsusi diqqət göstərilir, müxtəlif istiqamətlər üzrə dövlət dəstəyi davam etdirilir. İnvestisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün müvafiq strukturların - innovasiya mərkəzlərinin, biznes inkubatorlarının, sənaye və texnologiya parklarının yaradılması ölkə iqtisadiyyatına yeni məzmun gətirir. Biznes inkubatoru yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərinin, o cümlədən gənclərin səmərəli sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə onlara kompleks texniki-təşkilati və inzibati-təsərrüfat xidmətləri göstərən resurs mərkəzidir. Dünyada ilk biznes inkubatorları ötən əsrin 50-ci illərində ABŞ-da meydana gəlib və hazırda bütün dünyada müvəffəqiyyətlə fəaliyyət göstərir.

İqtisadçı alim Pərviz Heydərovun sözlərinə görə, 2013-cü ildən «Azərbaycan gənclərinin sahibkarlıq fəaliyyətində iştirakının dəstəklənməsi layihəsi» çərçivəsində təşəbbüskar gənclər üçün biznes inkubatorlarının yaradılması nəzərdə tutulmuşdu: «Burada başlıca məqsəd müvafiq iqtisadi rayonlarda gənclərin sahibkarlıq təşəbbüsünə yardım edilməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması, sahibkarlara göstərilən dövlət dəstəyinin gücləndirilməsidir». Bildirilib ki, biznes inkubatorlarında sahibkarlıq fəaliyyətinə yeni başlayanlara müxtəlif xidmətlər göstərilir və hər bir inkubatorda bu xidmətlərin sayı fərqli olur: «Biznes inkubatorlarında göstərilən xidmətlər, əsasən, ofisin zəruri avadanlıqlarla təmin olunması, mühasibat uçotunun, kargüzarlığın aparılması, biznesin irəliləməsi strategiyasının hazırlanması üzrə məsləhət, sərmayə axtarışı, müxtəlif seminarların keçirilməsi və s. kimi sahələri əhatə edir».

> **Biznes inkubatoru yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərinin, o cümlədən gənclərin səmərəli sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə onlara kompleks texniki-təşkilati və inzibati-təsərrüfat xidmətləri göstərən resurs mərkəzidir**

Yevlax şəhərində yerləşən Aran Regional İnkişaf Mərkəzində fəaliyyət göstərən biznes inkubatoru tərəfindən rezidentlər üçün biznes ideyalarının reallaşdırılması və biznesin təşkili üzrə məsləhət xidməti fəaliyyətə başlayıb. İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, məsləhət xidməti sahibkarlıq təşəbbüslərinin dəstəklənməsində biznes inkubatoru rezidentlərinin səmərəli fəaliyyətinə, onların qısa müddət ərzində sahibkar kimi formalaşmasına, yeni biznes və məşğulluq imkanlarının yaradılmasına töhfə verir. Nazirliyin Biznes Tədris Mərkəzinin və İstehlak Mallarının Ekspertizası Mərkəzinin nümayəndələri tərəfindən göstərilən məsləhət xidməti biznesin planlaşdırılması, şirkətin marketinq fəaliyyətinin təşkili, maliyyə menecmenti, insan resurslarının idarə edilməsi, ixrac sahəsində güzəştlərin tətbiqi, laboratoriya xidməti və s. kimi istiqamətləri əhatə edir. Biznes inkubatorunun fəaliyyətinin ikinci mərhələsini əhatə edən məsləhət xidməti isə hər qurum tərəfindən ümumilikdə 6 ay müddətində aparılacaq. Xidmətlər İqtisadiyyat, Vergilər, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Əmlak Məsələləri Dövlət Komitəsinin və özəl sektorun nümayəndələri tərəfindən göstəriləcək.

**F. İKRAMQIZI**

# Əsas məqsəd idxalçı ölkədən ixrac edən ölkəyə çevrilməkdir

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) «İxrac icmalı»nın 2017-ci ilin yanvar-oktyabr aylarını əhatə edən növbəti buraxılışı təqdim olunub. İcmalda göstərilir ki, 2017-ci ilin ilk 10 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 219 milyon ABŞ dolları həcmində olub və ixrac əməliyyatlarında 1723 subyekt iştirak edib.***

2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə ixrac 23 faizdən çox artıb. Qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında isə Rusiya liderliyini qoruyub. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2017-ci ilin 10 ayı ərzində bu ölkəyə 424 milyon ABŞ dolları dəyərində mal ixrac edilib. Türkiyə (243 milyon dollar), İsveçrə (115 milyon dollar), Gürcüstan (108 milyon dollar) və Türkmənistan (48 milyon dollar) da Azərbaycanın ən çox mal ixrac etdiyi ölkələrdir.

İqtisadi İslahatların təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ramil Hüseynin sözlərinə görə, 2017-ci ilin 10 ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında birinci yeri pomidor (131,5 milyon dollar) tutub. İkinci yerdə qızıl (98,5 milyon dollar), üçüncü yerdə isə qabığı təmizlənmiş meşə fındığı (88,6 milyon dollar) dayanır: «Cari ilin oktyabr ayında qeyri-neft sektoru üzrə 475 subyekt tərəfindən 149,6 milyon dollar dəyərində ixrac əməliyyatları həyata keçirilib. İxrac olunan əsas mallar qabığı təmizlənmiş meşə fındığı, xurma, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal edilməmiş formalarda), alma, xiyar və kornişonlar, metanol (metil spirti), alüminium və s. olub. Ay ərzində qabığı təmizlənmiş meşə fındığının ixracının dəyəri 26,6 milyon dollar, xurmanın ixrac dəyəri 21,6 milyon dollar, qızıl ixracının dəyəri isə 17,2 milyon dollar təşkil edib».

**2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi** *(mln. ABŞ dolları)*




«İxrac icmalı»da qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin reytinqi də verilib. 2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin siyahısında ilk onluqda «Azərbaycan İnterneşnl Mayninq Kompani Limited Şirkəti»nin Azərbaycandakı nümayəndəliyi, «Baku Steel Company» MMC, «Azərbaycan Şəkər İstehsalat Birliyi» MMC, «Sun Food» MMC, «MKT İstehsalat Kommersiya» MMC, Zabil Ocaqverdi oğlu Talıbov, «Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD» MMC, «VN Food Export Import Company» MMC, «CTS-Agro» MMC və «Food Export Şəmkir» MMC təmsil olunur. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə ilk onluqda ARDNŞ-nin «Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi», «Det-al Alüminium» MMC, «Azergold» QSC, «Azərenerji» ASC, «SOCAR Methanol» MMC, «Ərzaq Məhsullarının Tədarükü və Təchizatı» ASC, ARDNŞ-in «Geofizika və Geologiya İdarəsi», «Suraxanı Maşınqayırma Zavodu Törəmə» ASC, «Naxçıvan MR Dövlət Energetika Agentliyi» və «Azərbaycan Dəmir Yolları» QSC təmsil olunurlar.

**Azexport.az portalına 2017-ci ilin 10 ayında daxil olan ixrac sifarişlərinin dəyəri** *(mln. ABŞ dolları)*




İcmalda 2017-ci ilin 10 ayı ərzində «Azexport.az» portalına daxil olan ixrac sifarişləri barədə də məlumat təqdim edilib. Qeyd olunub ki, 10 ay ərzində dünyanın 66 ölkəsindən 397,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub. Bu sifarişlərin dəyəri isə 41,5 milyon dollar təşkil edib. Sifarişlərin ilk beşliyində Rusiya (19,2 %) ilə yanaşı, Türkiyənin (6%), Ukraynanın (5,7%), Hindistanın (4,8%) və ABŞ-ın (4,2%) adı yer alıb, İsrail, Myanma kimi yeni ölkələrdən də ixrac sifarişi daxil olub. Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, oktyabr ayında ən çox ixrac sifarişi nar şirəsi, konservləşdirilmiş tərəvəzlər, kosmetik vasitələr, şərab, alma, armud, nar, xurma, pomidor, sarımsaq, kələm, çay, qənnadı məhsulları, günəş paneli, tütün, biyan kökü, meyvə qurusu, ipək xalça, cemlər, boya, tibbi spirt, şəkər tozu və s. mallara aid olub.

İcmalda «Azexport.az» portalının sahibkarlara yeni xidmət təklif etməsi, «Bir pəncərə» İxraca Dəstək Mərkəzi vasitəsilə Rusiya, Türkiyə, BƏƏ və digər ölkələrə ixrac edilmiş məhsullar, Şanxay və Sankt-Peterburq şəhərlərinə göndərilmiş ixrac missiyası, Şərq Tərəfdaşlığı Mərkəzi ilə İİTKM arasında memorandum imzalanması, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən zəfəranın dünya bazarlarına ixracı imkanlarının araşdırılması və s. məsələlər barədə də məlumatlar yer alıb.

Millət vəkili Eldəniz Səlimov bildirib ki, ölkədə aparılan iqtisadi islahatların təhlili qeyri-neft sektorunun dövlətin diqqət və qayğısı sayəsində xeyli irəlilədiyini, inkişaf etdiyini göstərir: «Kənd təsərrüfatına ayrılan diqqət son bir neçə ildə taxılçılığın, pambıqçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, tərəvəzçiliyin, bağçılığın və heyvandarlığın inkişafını xeyli sürətləndirib, bu sahələrə göstərilən güzəştlər insanların torpağa qayıdışını təmin edib. 2017-ci ildə təkcə pomidor ixracından 130 milyon dollardan artıq gəlir əldə olunub. Azərbaycanda yaradılan sənaye parkları, sənaye məhəllələri və digər istehsal sahələri üzrə ölkəmizdə yetişdirilən kənd təsərrüfatı məhsulları beynəlxalq standartlara uyğun emal edilir və qablaşdırılaraq ixrac olunur».

E.Səlimov qeyd edib ki, iqtisadiyyatın sürətli inkişafı xarici ölkələrdə ticarət evlərinin açılması zərurətini yaradıb: «Azexport.az» portalı Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi, eləcə də daxili və xarici bazarlarda satışı üçün çox əlverişli rola malikdir. Bu portal dünyanın ən populyar elektron satış şəbəkələri ilə inteqrasiya olunaraq Azərbaycan mallarını dünyaya təqdim edir. Əvvəllər əsasən qonşu dövlətlərə mal ixrac etməyə daha çox diqqət yetirilirdi, son dövrlərdə isə dünya standartlarına uyğun istehsal və emalımız yarandığı üçün Avropa ölkələrinə çıxışımız da sürətlənib. Bakı-Tbilisi- Qars dəmir yolu xəttinin çəkilişi Azərbaycana ixrac məhsullarının çeşidlərinin artırılması üçün daha çox şərait yaradacaq və bununla da ölkəyə böyük həcmdə valyuta daxil olacaq. İqtisadi inkişafımızı təsdiq edən amillərdən ən başlıcası da elə Azərbaycanın idxalçı ölkədən ixrac edən ölkəyə çevrilməsidir».

> Cari ilin oktyabr ayında qeyri-neft sektoru üzrə 475 subyekt tərəfindən 149,6 milyon dollar dəyərində ixrac əməliyyatları həyata keçirilib. İxrac olunan əsas mallar qabığı təmizlənmiş meşə fındığı, xurma, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal edilməmiş formalarda), alma, xiyar və kornişonlar, metanol (metil spirti), alüminium və s. olub

**F. İKRAMQIZI**

# Pensiyaçıların sosial müdafiəsi gücləndirilir

***Azərbaycanın sığorta-pensiya sistemində həyata keçirilən islahatların davamı olaraq, «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikası Qanununa edilmiş son dəyişikliklər bu sistemin adekvat sığorta təminatı prinsipi üzərində təkmilləşdirilməsinə və uzunmüddətli inkişafına etibarlı əsas yaradıb, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə imkan verib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayevin sözlərinə görə, dəyişikliklər yaşa görə əmək pensiyasına çıxdıqdan sonra işləməkdə və bununla da pensiya kapitallarını artırmaqda davam edən şəxslərin pensiyalarının yenidən hesablanaraq əhəmiyyətli şəkildə artırılmasına əsas yaradıb. «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikası Qanununun 37.3.1-ci maddəsinə 2017-ci ilin iyul ayında edilmiş dəyişikliklərə əsasən, yaşa görə pensiya təyin olunmuş şəxs işləməkdə davam edərsə, hər 6 ildən bir onun hesabında toplanmış sosial sığorta haqqı 72-yə (6 il x 12 ay) bölünərək pensiyasının üzərinə gəlinir: «Halbuki bu tarixədək qüvvədə olmuş qanun yaşa görə pensiyaya çıxmış şəxslərə pensiya təyin olunduqdan sonra onların uzun illər işləmələrinə və müəyyən məbləğdə kapital toplamalarına baxmayaraq, pensiyalarını işlədikləri dövrdə yenidən hesablatdırmağa imkan vermirdi. Yəni yaşa görə pensiyaya çıxmış şəxslər işləməkdə, pensiya kapitallarını toplamaqda davam etsələr də, yalnız əmək fəaliyyətini tam dayandırdıqdan sonra pensiyalarını yenidən hesablatdıra bilərdilər. Göründüyü kimi, son dəyişikliklər bu məhdudiyyətin aradan qalxmasına səbəb olub».

E.Babayev qeyd edib ki, həmin dəyişikliklərə uyğun olaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər və rayon şöbələri tərəfindən işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdikdən, yaxud pensiya təyin olunduğu gündən sonra 6 il və daha çox müddətdə işləyən şəxslərin müraciətləri əsasında onların pensiyalarının yenidən hesablanaraq artırılması həyata keçirilir. Bu günədək respublika üzrə 7692 nəfər pensiyaçı bu hüquqdan yararlanıb və onların pensiyasının aylıq məbləği orta hesabla 175,7 manat artırılıb. Artımlara yönəldilən əlavə vəsaitin aylıq məbləği 1,35 milyon manat təşkil edib.

**FƏXRİYYƏ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Prezident İlham Əliyev «Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında» sərəncam imzalayıb.

Noyabrın 28-29-da Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcək Beynəlxalq Enerji Xartiyasının 28-ci konfransında Azərbaycan da təmsil olunacaq.

Dövlət başçısı «Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında» sərəncam imzalayıb.

Noyabrın 28-dən 30-dək Bakı Ekspo Mərkəzində təşkil olunacaq «RecExpo III» sərgisində 14 ölkədən 150-dən çox tikinti və investisiya layihəsi təqdim ediləcək.

Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında 8 Tvinninq layihəsinin icrasına hazırlıq gedir.

«Güzəştli mənzilin alqı-satqı və ipoteka müqaviləsi»nin razılaşdırılması prosesi başa çatıb.

Belarus Ticarət-Sənaye Palatasının «Belinterekspo» sərgi unitar müəssisəsi 2018-ci ildə Azərbaycanda sərgi təşkil etməyi planlaşdırır.

Gələn ilin fevral ayında Moskvada keçiriləcək «PRODEXPO 2018» Beynəlxalq Ərzaq Sərgisində vahid ölkə stendində iştirak üçün ixracatçılardan müraciətlərin qəbulu bu il dekabrın 8-dək uzadılıb.

İsrailin məşhur televiziya verilişi «Open Skies» dünya turizmi və ənənəvi mətbəx haqqında hazırladığı silsilə proqramlardan birini Azərbaycana həsr edib.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000 manatdan 10.000 manatadək** miqdarda cərimə və ya **3 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.<br><br>**3 ildən 7 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Günün aktual mövzusu: elektron pulun populyarlığı artır

**Son illərdə Azərbaycanda nağd dövriyyənin nağdsız dövriyyə ilə əvəzlənməsi prosesi xeyli sürətlənmişdir. Həm rahatlıq, həm də istifadə zamanı dəqiqliyin əldə edilməsi, şəffaflığın artırılması, hesablaşmaların sürətləndirilməsi və digər faktorlar nağdsız dövriyyənin inkişafını labüdləşdirmiş və nağdsız dövriyyənin artması ilə yeni müxtəlif sistemlər, terminlər meydana çıxmışdır. Dünya maliyyə bazarında bitkoin adlı kriptovalyutanın dəyərinin artması ona marağı da gücləndirmişdir. Bəs bitkoin, ümumiyyətlə, elektron pul haqqında nə bilirik?**
**Mövzunu «TuranBank»ın informasiya texnologiyaları üzrə baş direktoru Bəxtiyar Məmmədov şərh edir.**

Elektron pul müxtəlif hüquqi və fiziki şəxslər tərəfindən ödəniş vasitəsi kimi qəbul edilən, müəyyən fiziki informasiya daşıyıcısında (məsələn, ödəniş kartında), yaxud hər hansı kompüter sistemində saxlanan informasiyadır.

Elektron pulun bir növü olan ödəniş kartlarının nə olduğuna və necə işlədiyinə nəzər salaq. Hazırda istifadə etdiyimiz plastik ödəniş kartlarında olan vəsaitlərimiz elektron pulun bir növüdür. Məsələn, hər hansı bir vətəndaş müəyyən bir müəssisədə işləyir və müəssisə həmin vətəndaşa əməkhaqqını ödəniş kartları (plastik kartlar) vasitəsilə ödəyir. Bu məqsədlə müəssisə öz hesabından kartın mənsub olduğu banka ödəniş edir, bank isə verilmiş cədvələ əsasən müəssisənin əməkdaşlarının cari hesablarına müvafiq vəsaiti yerləşdirir. Daha sonra bu informasiya bank tərəfindən «prosessinq mərkəzi» adlanan təşkilata ötürülür (Azərbaycanda «Azericard», «MilliKart» və müxtəlif banklar tərəfindən yaradılmış bir neçə prosessinq mərkəzi mövcuddur). Prosessinq mərkəzi də öz məlumat bazasında müvafiq kartın balansında bank tərəfindən göndərilmiş informasiyada göstərilmiş məbləğ qədər vəsaitin olmasını qeyd edir. Bundan sonra vətəndaş həmin ödəniş kartı ilə əməliyyat apardıqda (məsələn, ATM-dən nağd pul çıxardıqda, POS-terminal və ya onlayn sistemlər vasitəsilə ödənişlər etdikdə) müvafiq sistem (ATM, POS-terminal, onlayn ödəniş sistemləri və s.) prosessinq mərkəzinə xüsusi rabitə kanalları vasitəsilə müraciət edir, mərkəz həmin şəxsin ödəniş kartının balansını hesabdan çıxarılmış məbləğ həcmində azaldır, müştərinin əməliyyat etdiyi tərəfin isə balansını artırır.

Elektron pulun digər bir forması da müxtəlif mərkəzləşdirilmiş, yaxud paylanmış kompüter sistemlərində (şəbəkələrində) elektron şəkildə saxlanan informasiyadan ibarət olan elektron puldur. Öncə elektron pulun emissiyası aparılır. Bu proses müxtəlif elektron pul təşkilatları, mərkəzi banklar və hər bir dövlət daxilində səlahiyyət verilmiş qurumlar tərəfindən həyata keçirilə bilər. Bir sıra hallarda emissiya məbləği qəbul edilmiş vəsaitlərin həcminə bərabər olur və elektron valyuta hər hansı nağd pul vasitəsinin ekvivalenti kimi çıxış edir. Lakin yanaşmadan asılı olaraq, məhdud sayda dövri olaraq azalan, yaxud artan sayda elektron valyutalar yaradıla və bunlar üçün tələb və təklifə uyğun məzənnə müəyyən edilə bilər.

Mərkəzləşdirilmiş qaydada yaradılan elektron pulun işləmə mexanizmi də ödəniş kartlarının iş prinsipinə uyğundur. Fərq, əsasən, ondan ibarətdir ki, ödəniş kartlarında ödəmə vasitəsi olaraq hər hansı ödəniş kartı iştirak edir, kartsız ödəniş vasitələrində isə bu iş onlayn sistemlər vasitəsilə həyata keçirilir. Qısa bir misalla bunu da izah edək. Məsələn, vətəndaş elektron pul sistemi olan informasiya sistemində qeydiyyatdan keçir, müəyyən üsullarla (plastik kartlardan ödəniş, nağd qaydada banklara ödəniş və sair) həmin elektron pul hesabına vəsait yerləşdirir. Daha sonra hesablaşmalar zamanı mərkəzləşdirilmiş sistemlər vasitəsilə həmin vəsaiti digər bir şəxsin elektron pul hesabına (yaxud sistem imkan verərsə, ödəniş kartı hesabına) köçürə bilir. Dünya praktikasında bir sıra hallarda bankların elektron pul sisteminə inteqrasiyası və elektron pulun nağdlaşdırılması imkanı tətbiq edilsə də, Azərbaycanda bu cür sistem hələ tətbiq edilməmişdir.

Paylanmış arxitekturalı elektron pul sistemləri də mövcuddur ki, bunlardan biri kriptovalyuta sistemidir. Son dövrlərdə geniş yayılmış bitkoin valyutası anonim şəkildə yaradılmış sistemdir. Bu sistemdə hər bir şəxs hesab aça bilər. Hesab açdıqdan sonra isə həmin hesaba vəsait yatırılması üçün bir sıra üsullar təqdim edilir: müxtəlif şəxslərdən real pul vasitəsilə kriptovalyuta almaq, həmçinin öz texniki resurslarını təqdim etməklə hələ emissiya olunmamış bitkoinləri əldə etmək mümkündür.



Hazırda istifadə etdiyimiz plastik ödəniş kartlarında olan vəsaitlərimiz elektron pulun bir növüdür

Bitkoin planına görə, maksimum 21 milyon kriptovalyuta emissiya edilə bilər. Emissiya mərkəzləşdirilmiş qaydada deyil, xüsusi texniki üsullar vasitəsilə həyata keçirilir. Bitkoində nəzarət bütün iştirakçılara aiddir və blokçeyn texnologiyası tətbiq edilir. Müəyyən dövrdən bir hər hansı istifadəçi tranzaksiyaların doğruluğunu qeyd edir və növbəti blok başlanır. Bitkoin hesablaşmaları heç bir mərkəzləşdirilmiş nəzarətə tabe deyil, hesab sahibi barədə məlumatların açıqlanması da tələb edilmir. Bu isə öz növbəsində risklər yaradır.

Bəs bitkoinlərin qeyri-nağd dövriyyə zamanı istifadəçi üçün hansı üstünlükləri vardır? Sistemdə hər hansı yanlış hesablamanın həyata keçirilməsi və hər hansı hesablaşmanın gizlədilməsi mümkün deyildir. Real istifadəçi haqqında məlumat əldə etmək isə olduqca çətindir. Əvvəlki hesablaşma məlumatlarını dəyişmək də qeyri-mümkündür, çünki bütün bloklar (səhifələr) müəyyən zaman intervalı üzrə nömrələnir. Çox cüzi komissiya haqqı yalnız blokların təsdiqlənməsi zamanı tranzaksiya həyata keçirən şəxsin tranzaksiyasını daha tez qeydiyyata aldırmaq üçün bloku təsdiqləyən şəxsə ödənilə bilər.

Beləliklə, bu kriptovalyuta sistemində hesablaşmaların real sahibləri barədə məlumat almaq olduqca çətindir və bir çox hallarda mümkün deyildir. Başqa sözlə desək, ona dövlət nəzarəti mümkünsüz olduğu üçün bu, qeyri-leqal (silah, narkotik ticarəti və s.) dövriyyələr üçün vəsaitlərin istifadəsi imkanlarını yaradır. Bundan əlavə, normal iqtisadiyyatda pul vəsaitlərinin həcmi mərkəzi banklar tərəfindən idarə edilir, pul vəsaitləri ilə mal və xidmətlərin həcmi uzlaşdırılır. Bitkoində isə bu prinsip yoxdur, hər zaman dəyərini tələb və təklif əsasında artırır, yaxud azaldır.

Ümumiyyətlə, bitkoinin gələcəkdə necə olacağı ilə bağlı kifayət qədər mübahisəli məqamlar var, müəyyən qrup ekspertlər bunun möhtəkirlik və piramida olmasını, müəyyən qrup isə gələcəyin valyutası ola biləcəyini deyir. Bu sualın dəqiq cavabını isə zaman verəcək...

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

## 2017-ci ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən

**cari ilin dekabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

• **Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq alqı-satqı müqaviləsini təsdiqləyən notarius tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

• **Muzdlu işlə əlaqədar 2017-ci ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik – növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 4-cü rüb üzrə bəyannaməni yanvar ayının 22-dən gec olmayaraq təqdim edirlər).

• **Xüsusi notariusların 2017-ci ilin noyabr ayı üzrə hesabladığı gəlir vergisi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (4-cü rüb üzrə bəyannamə yanvar ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## «Patent haqqında» Qanun sadələşdiriləcək

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi sədrinin müavini Niyazi Rəhimov jurnalistlərə müsahibəsində bildirib ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə birgə Azərbaycan Respublikasının «Patent haqqında» Qanunu patent hüququ sazişinə uyğunluğu baxımından öyrənilib. Bu istiqamətdə müvafiq qanunvericilik dəyişiklikləri ilə bağlı təşəbbüslər layihəsi hazırlanır və yaxın zamanda hökumətə təqdim olunacaq.

Nəzərdə tutulan dəyişikliklər barədə məlumat verən sədr müavini deyib ki, burada prioritet məsələ ixtira üçün ərizə verildikdə vaxta qənaətin əldə olunmasıdır: «Əgər öncəki təcrübələrdə müvafiq patent qurumuna iddia ərizəsi verilərkən bir neçə sənədin təqdim olunması və prosedurların yerinə yetirilməsi nəzərdə tutulurdusa, artıq bu prosedur mümkün qədər sadələşdiriləcək. Bu, bir tərəfdən iddiaçının işini asanlaşdırır, digər tərəfdən isə milli patent qurumunun həyata keçirdiyi proseduru minimuma endirir».

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

• **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**

• **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
• ikinci dəfə yol verdikdə **20 faizi**,
• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## ABŞ-da şəbəkə neytrallığının ləğvi kiçik biznesə problem yarada bilər

Rabitə üzrə Federal Komissiyanın şəbəkə neytrallığının ləğv edilməsi ilə əlaqədar planı kiçik biznes dairələrində narahatlıq yaratmışdır. Şəbəkə neytrallığı prinsipi 2015-ci ildə Barak Obama administrasiyası tərəfindən tətbiq edilməyə başlanmışdı. Bu prinsipə əsasən, internetin kontenti bütün istifadəçilər üçün eyni səviyyədə əlçatan olmalıdır. Bu o deməkdir ki, internet provayderləri vətəndaşların hər hansı bir qrupuna resurslardan istifadə etməyi asanlaşdıra, digər qrupu üçünsə çətinləşdirə bilməzlər. Bu planın tərəfdarları isə hesab edirlər ki, şəbəkə neytrallığı prinsipinin ləğv edilməsi kiçik şəhərlərdə infrastrukturun inkişaf etdirilməsi üçün provayderlərin zəruri vəsaitlərlə təmin olunmasına şərait yaradacaq.

Komissiyanın təklifi kiçik biznes təmsilçilərində ciddi narahatlıq yaratmışdır, onlar iri korporasiya və şirkətlərlə rəqabət aparmaq üçün kifayət qədər pul vəsaitləri əldə edə bilməyəcəklərindən ehtiyat edirlər. İmkanlı istifadəçilərə öz saytları üçün daha böyük vəsaitlər qoymaq imkanı verilməsi kiçik biznes üçün ədalətsiz rəqabət şəraiti yaradacaq. Bu, öz gəlirlərinin bir hissəsini internet satışlarından əldə edən şirkətlər üçün gəlirlərin bir hissəsinin itirilməsi, fəaliyyəti tamamilə onlayn trafikdən asılı olanlar üçünsə biznesin sonu demək olacaq.

## BVF Litvanı vergi sistemini tarazlaşdırmağa dəvət edir

Beynəlxalq Valyuta Fondu (BVF) Litvanı ağırlığı əmək vergisinin üzərindən zənginlik vergisinin üzərinə gətirən tədbirlərlə bağlı ehtiyatlı olmağa çağırmışdır.

BVF missiyasının Litvaya son səfərindən sonra açıqlama verilmişdir ki, 2018-ci il üçün büdcə layihəsinə proqressiv vergi sisteminin qaldırılması və iqtisadiyyatın ayrı-ayrı sahələrində vergi rejimindəki güzəştlərin azaldılması barədə müddəalar daxildir. Qeyd edilmişdir ki, vergi daxilolmaları əməkhaqqının və istehlakın güclü artımı sayəsində stimullaşdırılır və büdcədə profisit əldə olunur. Bununla yanaşı, BVF nümayəndələri hesab edirlər ki, fiskal siyasət «ağıllı mövqenin qorunub saxlanılması və sosial tələblərin yerinə yetirilməsi arasında düzgün tarazlığın yaradılmasını təmin etməlidir».

## Kiçik müəssisələr üçün sadələşdirilmiş vergi əlverişli sayılır

Ukraynada kiçik müəssisələr üçün nəzərdə tutulan vergi islahatlarının başlıca üstünlükləri sahibkarların yalnız bəzi vergilərdən və məcburi ödənişlərdən azad olunmasından ibarət deyil, həm də hesabatlılığın sadəliyindədir. Yaxın zamanlarda kiçik müəssisələr illik gəlir, işçilərin orta sayı və fəaliyyət növü nəzərə alınmaqla sadələşdirilmiş vergi sistemindən istifadə edə biləcəklər.

2015-ci ildən 20 faizlik maksimal dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi illik dövriyyəsi 20 milyon qrivna (1,284 milyon manat), işçilərinin sayı isə qeyri-məhdud olan şirkətlər ola bilərdilər. Vergi Məcəlləsinə əsasən, sadələşdirilmiş vergi sistemi qeyri-rezident şəxslərə şamil edilmir. Sadələşdirilmiş verginin əhatə dairəsinə vergi ödəyicilərinin dörd qrupu düşür: onlardan üçünü fiziki şəxslər - sahibkarlar təşkil edir, dördüncüsü isə kənd təsərrüfatı məhsullarının istehsalçılarıdır.

## İdxal rüsumları aşağı salınacaq

Dekabrın 1-dən tətbiqi planlaşdırılan yeni plan Çin bazarında transmilli şirkətlərin fəaliyyəti üçün perspektiv vəd edir. Bu addımın atılması 187 kateqoriyaya aid malların ucuzlaşmasına şərait yaradacaq. Həmin mallardan tutulan rüsumların 17,3 faizdən 7,7 faizə qədər aşağı salınacağı gözlənilir. Hökumət rəsmiləri qeyd etmişlər ki, bu qərarın başlıca səbəbi istehlakçılara Çində istehsal olunmayan daha keyfiyyətli malları almağa imkan yaratmaqdır.

Mütəxəssislərin fikrincə, idxal mallarından tutulan rüsumların aşağı salınması üç məqsəd daşıyır: Çində istehlakın səviyyəsini yüksəltmək, islahatlar aparmaqla ölkə iqtisadiyyatının dünyaya, xüsusən də ABŞ-a açıq olduğunu nümayiş etdirmək.

Çin hökumətinin belə bir qərar qəbul etməsində « Procter & Gamble» (Çindəki satışı 8 faiz təşkil edir), «Danone» və «Nestle» kimi transmilli şirkətlər daha çox maraqlıdırlar.

## Britaniyada istehlak qabiliyyəti düşüb

Fiskal Araşdırmalar İnstitutu «Breksitin» yaratdığı qeyri-müəyyənlik, məhsuldarlığın aşağı düşməsi, iqtisadi artım sürətinin 2 faizdən 1,5 faizə enməsi və bu il inflyasiyanın 3 faizə çatması nəticəsində Britaniya ailələrinin real gəlirlərinin təhlükə qarşısında olduğu barədə xəbərdarlıq etmişdir. Proqnozlara əsasən, 2020-ci ilədək istehlak qabiliyyətinin azalması davamlı xarakter daşıyacaq. Daha az resurslara malik əhalinin üçdə birinin real istehlak qabiliyyətinin itkisi ildə 800 funt sterlinq təşkil edəcək, varlı britaniyalıların üçdə birinin gəlirləri isə hər il 207 funt sterlinq artacaq. Hesablamalara əsasən, 2022-ci ildə əhalinin əksəriyyətinin real gəlirləri 2008-ci ildəkindən aşağı səviyyəyə düşəcək.

## Finlandiya Aİ-nin ƏDV islahatı planının şərhini verdi



Hökumətdən bildirilmişdir ki, Finlandiya Avropa İttifaqı ölkələrində əlavə dəyər vergisi sahəsində aparılan islahatların tərəfdarı olsa da, təkliflərin bir sıra aspektləri problemlidir və treyderlərin xərclərinin artmasına səbəb ola bilər.

Noyabrın 16-da Maliyyə Nazirliyinin ictimaiyyət üçün açıqlanmış bəyanatında bildirilir ki, «hökumət əlavə dəyər vergisi sisteminin sadələşdirilməsi məqsədini dəstəkləyir» və prioritet məsələlər kimi vergi fırıldaqçılığının qarşısının alınması və administrativ xərclərin azaldılması ilə bağlı məsələləri nəzərdən keçirir. Bəyanatda qeyd edilmişdir ki, «bununla belə, hazırda Finlandiya təklif olunan planda çoxlu sayda problemlərin və açıq qalmış sualların mövcud olması səbəbindən islahatların həyata keçirilməsinə hazır deyil. Yeni vergi modeli faktiki olaraq şirkətlər üçün administrativ çıxılmaların artmasına və vergi yükünün azaldılmasına gətirib çıxara bilər. Hökumət hazırda qüvvədə olan sistemin çatışmazlıqlarının tezliklə aradan qaldırılmasını dəstəkləyir».

Bu ilin oktyabrında Avropa Komissiyası ƏDV ilə bağlı planların vergi fırıldaqçılığına qarşı mübarizədə son iyirmi beş ildə ən böyük islahat olacağı barədə açıqlama vermişdi. Açıqlamada qeyd edilmişdi ki, ƏDV fırıldaqçılığı ucbatından Avropa İttifaqına üzv ölkələr hər il 1 milyard avrodan artıq itki ilə üzləşirlər.

## Rusiyada neft üçün yeni rüsum tətbiq olunacaq

Rusiya Federasiyasında neftdən əldə edilən əlavə gəlirlərə vergi tətbiq olunması barədə qanun qəbul edilməsi məsələsi gündəliyə gətirilmişdir. Nazirlər Kabinetinin iclasında karbohidrogenlər haqqında qanun lahihəsinə baxılmışdır. Layihədə gəlirlərə tətbiq olunan rüsumların tənzim edilməsi nəzərdə tutulur. Qanun layihəsi iclasda bəyənilmişdir və zəruri prosedurlardan sonra onun işə düşəcəyi gözlənilir. Energetika Nazirliyindən isə bildirilmişdir ki, qanun layihəsinin razılaşdırılması və tamamlanması üçün uzun zaman tələb olunur və buna görə də nəzərdə tutulan mexanizmin yalnız bir ildən sonra hərəkətə gətirilməsi mümkün olacaq.

Neftdən əldə edilən əlavə gəlirlərdən tutulan vergi vəsaitlərin karbohidrogenlərin satışından sonra ödənilməsini nəzərdə tutur. Hazırda Rusiyada neftdən ixrac rüsumu və mədən vergisi tutulur. Yeni rüsumun tutulması mədən vergisini azaltmağa və ya qismən dəyişdirməyə imkan yaradacaq. Hökumət tərəfindən bu verginin tətbiq edilməyəcəyi dörd yataq da müəyyənləşdirilmişdir. Yeni yaradılan müəssisələrə güzəştlər, vergi tətilləri və digər imtiyazlar verilə bilər. Belə hesab edilir ki, bu qanun layihəsi neft sənayesinin vergiyə cəlb edilməsinin təkmilləşdirilməsinə imkan yaradacaq.

## Cənubi Avstraliya vergi islahatlarına hazırlaşır

Bank yığımları barədə mübahisəli planın qəbul edilməsindən imtina olunduqdan sonra Cənubi Avstraliya hökuməti bəyan etmişdir ki, bütün hallarda əməkhaqqından tutulan verginin azaldılması və xarici investorladan daha artıq ödənişlərin tutulması istiqamətində fəaliyyətini davam etdirəcək.

Hökumət ölkədəki dörd iri bankdan hər rüb 0,015 faiz tutulmasını təklif etmişdi. Parlamentin yuxarı palatası bu təklifi rədd etdikdən sonra hökumət noyabrın 15-də büdcə ilə bağlı öz qanun layihəsini ləğv edəcəyi və gələn il dövlət seçkiləri üçün vergi tutmayacağı barədə açıqlama vermişdir. Açıqlamada qeyd edilmişdir ki, büdcəyə əngəllər yaradan digər addımlarla bağlı nə etmək barədə qərar çıxarmazdan əvvəl parlamentin qərarı yenidən nəzərdən keçiriləcək.

Hökumətin mövqeyi belədir ki, kiçik müəssisələrdə əməkhaqqından tutulan vergiyə güzəştlər vermək planı qanun layihəsində olduğu kimi qalmalıdır.

Bundan əlavə, hökumət qanun layihəsinə xarici investorlar üçün planlaşdırılmış dörd faiz dərəcəsinin yeddi faizə qaldırılmasının tərəfdarıdır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Proqramlaşdırma dili; 2.Alkoqollu içkilərin satıldığı və içildiyi restoran tipli məkan; 3.Yaponiyada feodal dövründə (1185-1868) sahibi və ya ustası olmayan samuraylar; 4.Qədim türklərdə, sonralar isə kazak icmalarında hərbi bölük başçısı; 5.1990-cı il təvəllüdlü Avstraliya aktrisasının və müğənnisinin adı; 6.İslamda ilahiyyat və din üzrə təhsil almış alim; 7.Keçmiş futbolçu, Azərbaycanın əməkdar məşqçisi. «Qarabağ» futbol klubunun baş məşqçisi; 13.Musiqidə alterasiya işarəsi; 15.ABŞ-ın Nyu-York şəhərinin Manhattan bölgəsində yerləşən məşhur küçə; 16.XX əsrin əvvəlində Parisdə moda dizayneri tərəfindən təsis edilmiş dəbdəbəli geyim və ətir istehsalı firmasının adının ingiliscə yazılışı; 17.Kimyəvi üsulla əldə edilən tündsürməyi boya maddəsi; 18.Böyük Fransa inqilabı dövrünün məşhur siyasi xadimi; 20.Yunanıstanda şəhər; 21.İspaniya və Portuqaliyada geniş yayılmış kişi adı. Pyotr adının analoqu.

**Soldan sağa:** 1.Dövlət idarəetməsində münasibətlər sisteminin bir forması. Daha çox avtoritar rejimlərdə tətbiq edilir; 8.Subekvatorial qurşaqda ot örtüyünə və seyrək ağac və kollara malik geniş ərazi; 9.Hər hansı bir şirkətin məhsullarını topdan alıb, sonradan pərakəndə və kiçik topdan satılması ilə məşğul olan hüquqi və ya fiziki şəxs; 10.Süd məhsulundan hazırlanmış sərinləşdirici içki; 11.ABŞ-da ştat; 12.Cinayətkarlardan, quldurlardan təşkil olunmuş dəstə. Hindistanda şəhər; 14.Alçaq yerləri su basmaqdan qorumaq, sututarlarda isə suyu saxlamaq və s. üçün quraşdırılan hidrotexniki qurğu (bənd); 19.Məşhur Amerika kinoaktrisasının soyadı. «Roma tətilləri»nin baş qəhrəmanı; 21.Ədəbi termin, nəsr; 22. Şərq masaüstü oyun növü; 23.Özbəkistanda şəhər; 24.Moldova və Rumıniyanın pul vahidi; 25.Dahi rus bəstəkarı, pianoçusu və dirijoru.



*«Roma tətilləri» filmindən fraqment*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Somali; 2.Nordvik; 3.Dunay; 4.Miosen; 5.Nordkin *(burnu)*; 6.Ofşor; 7.Qudron; 13.Ərak; 15.Varrant; 16.Ebonit; 17.Kimono; 18.Faktor; 20.Nəimi; 21.Asimo. **Soldan sağa:** 1.San-Dominqo; 8.Marenqo; 9.Rəşid *(Behbudov)*; 10.Liviy *(Tit)*; 11.Eskarqo; 12.Əkbər *(şah)*; 14.Aniva; 19.Benqazi; 21.Aorta; 22.Nail; 23.Rosinant; 24.Tai; 25.Promouter.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

## idman

# Qadınlara dəstək məqsədilə veloyürüş keçirilib

**Noyabrın 25-də Bakıda BMT-nin Bakı ofisi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Velosiped İdmanı Federasiyası və Heydər Əliyev Mərkəzinin tərəfdaşlığı ilə «Heç kim kənarda qalmasın: qadınlara və qızlara qarşı zorakılığa son!» şüarı altında veloyürüş keçirilib.**



«Azneft» meydanından start götürən veloyürüş Heydər Əliyev Mərkəzinin qarşısında başa çatıb. Yürüşə qatılan 100-dən artıq velosipedçi 12 kilometr məsafə qət edib. Veloyürüşdə BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun rezident nümayəndəsi Qulam İshaqzai, Azərbaycanda akkreditə olunmuş xarici diplomatik korpusların nümayəndələri, velo idmanı həvəskarları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Qulam İshaqzai yürüş iştirakçılarına gender əsaslı zorakılıq barədə məlumat verib. O bildirib ki, veloyürüş «Gender zorakılığına qarşı 16 günlük fəallıq kampaniyası» çərçivəsində keçirilir. Bu beynəlxalq kampaniya 25 noyabr - Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günündən başlayaraq 10 dekabr - İnsan Hüquqları Gününədək davam edəcək. Kampaniyanın məqsədi gender zorakılığına qarşı milli, regional və beynəlxalq səviyyədə maarifləndirmənin aparılmasıdır. Qeyd etmək lazımdır ki, bütün dünyada insanlar gender zorakılığına qarşı mübarizə aparmağa, mövcud olan stereotipləri dəyişməyə, qanunvericiliyi təkmilləşdirməyə və imkanları genişləndirməyə çalışırlar. «16 günlük kampaniya» kimi tanınan bu tədbir vasitəsilə hamını qadınlara və qızlara qarşı zorakılığın qarşısını almağa çağırırıq. Q.İshaqzai tədbirin təşkilində göstərdiyi dəstəyə görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, Azərbaycan Velosiped İdmanı Federasiyasına və Heydər Əliyev Mərkəzinə minnətdarlıq edib.

Xatırladaq ki, bu kampaniya Azərbaycanda 2008-ci ildən etibarən keçirilir. ABŞ Beynəlxalq İnkişaf Agentliyi vasitəsilə (USAID) Birləşmiş Ştatlar, BMT-nin Əhali Fondu, İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Beynəlxalq Miqrasiya Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Diplomatik Missiya Rəhbərlərinin Həyat Yoldaşları Təşkilatı, Heydər Əliyev Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyası builki kampaniyanın əsas tərəfdaşları və dəstəkçiləridir.

## Azərbaycanlı döyüşçünün parlaq qələbəsi

Rusiyada MMA üzrə «M-1 Challenge 86» qarışıq təkbətək döyüş növləri üzrə mötəbər yarış keçirilib. Turnirdə məşhur idmançımız - Avropa, Asiya çempionu, ikiqat dünya çempionu, Dünya Kubokunun qalibi Zaur Hacıbabayev Rusiya təmsilçisi Nikolay Savilov üzərində inamlı qələbə qazanıb. Qeyd edək ki, Azərbaycanın ən titullu MMA döyüşçüsü Zaur Hacıbabayev zədə səbəbindən uzun müddət idmandan kənarda qalmışdı. Rusiyadakı yarış idmançının il yarımdan sonra qatıldığı ilk turnir olub.

# Güləşçilərimiz mötəbər turnirlərdə uğurlarını davam etdirirlər



İran İslam Respublikasının paytaxtı Tehran şəhərində kiçik yaşlı yeniyetmə güləşçilər arasında «Day of children» beynəlxalq turniri keçirilib. Komanda yarışı xarakterli turnirdə sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələrdən ibarət yığma komandalarımız iştirak ediblər.

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, sərbəst güləş yarışlarında yığma komandamızla yanaşı, İranın 4 komandası, Ukrayna, Rusiya, Gürcüstan, İraq, Belarus, Qırğızıstan və Ermənistan komandaları mübarizə aparıblar. Dörd qrup üzrə keçirilən yarışda yığmamız İran və Ermənistan komandaları ilə qarşılaşıb. Hər iki görüşü qələbə ilə başa vuran güləşçilərimiz yarımfinala vəsiqə qazanıblar. Yarımfinalda Ukrayna güləşçilərinə də qalib gələn yığmamız finala yüksəlib. Həlledici görüşdə daha bir İran komandası ilə qarşılaşan güləşçilərimiz ümumi hesabda 4:6 hesabı ilə məğlub olub və turniri ikinci sırada tamamlayıblar.

Yunan-Roma güləşi yarışlarında isə Azərbaycan güləşçiləri ilə yanaşı, İranın 4 komandası, Ukrayna, İraq, Qazaxıstan, Moldova, Gürcüstan və Ermənistan komandaları mübarizə aparıblar. Dörd qrup üzrə keçirilən yarışda yığmamız İran və Qazaxıstan komandaları ilə qarşılaşıb. Hər iki görüşü qələbə ilə başa vuran güləşçilərimiz yarımfinala vəsiqə qazanıb. Yarımfinalda Moldova güləşçilərinə də qalib gələn yığmamız finala adlayıb. Qızıl medal uğrunda görüşdə Ukrayna komandası ilə qarşılaşan güləşçilərimiz ümumi hesabda 6:4 hesabı ilə qalib gəlib və turnirin baş mükafatına sahib olublar.

Polşanın Bıdqoş şəhərində isə güləş üzrə U-23 dünya çempionatına yekun vurulub. 19-23 yaşlı idmançılar arasında ilk dəfə keçirilən çempionatı yığma komandamızın üzvləri 5 bürünc medalla başa vurublar.

## 700 milyonluq futbol ulduzu



Argentinalı hücumçu Lionel Messi hazırda şərəfini qoruduğu «Barselona» klubu ilə müqaviləni 2020/2021-ci il mövsümünün sonunadək uzadıb. Razılaşmaya əsasən, dəbbənin məbləği 700 milyon avro təşkil edir. Klubun rəsmi saytında yerləşdirilən məlumata görə, otuz yaşlı futbolçunun əvvəlki müqaviləsi 2018-ci ilin yayınadək qüvvədədir. Xatırladaq ki, beş dəfə «Qızıl top» mükafatına layiq görülən argentinalı hücumçu «Barselona»nın heyətində meydançaya çıxdığı 602 oyunda ümumilikdə 523 qol vurub. O, hazırda klubun və La Liqanın tarixində ən məhsuldar hücumçudur.

## mozaika

texnologiya

### Laboratoriya şəraitində beyin hazırlanıb



Sinqapur mütəxəssisləri laboratoriya şəraitində üç millimetr uzunluğunda miniatür beyin yetişdiriblər və ondan Parkinson xəstəliyinin təbiətini, həmçinin əsəb sisteminin digər pozuntularını öyrənməkdə istifadə edilməsini nəzərdə tuturlar.

Alimlər ilk dəfə neyromelanin istehsal edən sinir hüceyrələri yaratmağa nail olublar. Bundan başqa, yetişdirilmiş minibeyində dofaminerqik neyronlar uğurla fəaliyyət göstərir. Minibeyin kiçik ölçülərə malik olmasına baxmayaraq, eynilə insandakı kimi inkişaf edir, beyin hüceyrələri arasında davamlı əlaqələr yaranır. Bioloqlar insan beyninin miniatür surətindən bir sıra sınaqlar zamanı meydana çıxan, eləcə də yeni tibbi preparatların yaratdığı əlavə təsirləri də öyrənə biləcəklər.

Qeyd etmək lazımdır ki, mini beynin yaranmasından sonra heyvanlar üzərində təcrübələr aparmağa ehtiyac qalmır.

təbabət

### Şəkillə diaqnoz

Alimlər mühəndis və proqramçılarla birgə insanın fotosuna əsasən onun xəstəliyini müəyyən etməyə imkan verən «VisualDx» mobil proqramını yaradıblar. Bu barədə «Apple» korporasiyasının rəhbəri Tim Kuk öz müsahibəsində məlumat verib. «VisualDx» texnologiyası maşın təliminə əsaslanır.

İnsanın dərisinin vəziyyətini və xəstəliyini müəyyənləşdirmək qabiliyyətinə malik olan «VisualDx» proqramı hələlik həkimlər tərəfindən sınaqdan keçirilir. Lakin istənilən şəxs bu mobil tətbiqi «Google Play» və ya «AppStore» proqramlar mağazasından yükləyə bilər.

araşdırma

### Nə qədər sadə görünsə də...




Müasir tibdə ən çox mübahisə doğuran məsələlərdən biri insanın hansı böyrü üstə yatması ilə bağlıdır. Hər iki tərəfin «lehinə» və «əleyhinə» tutarlı dəlillər olsa da, aparılan tədqiqatlardan sonra həkimlər belə nəticəyə gəliblər ki, bədənin sol tərəfi üstündə yatmaq daha faydalıdır.

Mütəxəssislərin rəyinə görə, sol böyrü üstə yatmağın başlıca faydası qanın oksigenlə daha yaxşı doyması, həmçinin qan dövranının yaxşılaşmasıdır. Bununla yanaşı, təkmilləşdirilmiş limfa cərəyanı orqanizmin təmizlənməsinə, həmçinin bədənin sağ tərəfində, heç bir basılma təhlükəsi olmadan, qan damarları ilə qanın ürəyə doğru hərəkətinə kömək edir.

Mədəaltı vəzi və mədə sol tərəfə meyilli yerləşdiyindən sol böyrü üstə yuxulama onların işini tənzimləyir, həm də qıcqırma əmələ gəlməsi riskini azaldır.

Daim sol böyrü üstündə yatan diabetli xəstələrin əhvali-ruhiyyələri xeyli yaxşılaşır. Lakin ürək çatışmazlığı, ürəyin işemik xəstəliyi, ağciyərlərin sol tərəfinin lokallaşdırılması xəstəliyi olanlara sol böyrü üstə yatmaq məsləhət deyil. Bu tövsiyə, zədə almış və əməliyyat keçirmiş xəstələrə də aiddir.

cəmiyyət

### Xocalı soyqırımı haqqında sənədli film




ABŞ-ın Yuta ştatının festival şəhəri kimi tanınan Sedar şəhərində keçirilən nüfuzlu 11-ci «Red Rock» film festivalı çərçivəsində Xocalı soyqırımından bəhs edən «Zülmətdən qaçarkən» sənədli filmi nümayiş etdirilib. Film ABŞ-da Xocalı soyqırımı mövzusunda çəkilmiş ilk sənədli ekran əsəridir.

Los-Anceles istehsalı olan və burada fəaliyyət göstərən yəhudi kinematoqraflar tərəfindən çəkilmiş film bu qanlı tarixin canlı şahidlərinin müsahibələri və onların tükürpədici ifadələri vasitəsilə 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin azərbaycanlı dinc əhaliyə qarşı törətdiyi vəhşilikləri diqqətə çatdırır. Filmdə, həmçinin, ABŞ-ın ştat qanunvericilərinin və tanınmış din xadimlərinin bu soyqırımı pisləyən açıqlamalarına, tədqiqatçı alim və jurnalistlərin rəylərinə, eləcə də erməni hüquq müdafiəçisi Vahan Martirosyanın Xocalı faciəsinə görə Ermənistan rəhbərliyini sərt şəkildə tənqid edən fikirlərinə yer verilir.

Filmdə 2008-ci ildən bəri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi «Xocalıya ədalət!» beynəlxalq kampaniyasının əldə etdiyi nailiyyətlərdən, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində oynadığı mühüm roldan bəhs olunur. Filmin ABŞ-da ilk nümayişi 2017-ci il fevralın 21-də Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun təşkilatçılığı ilə həmin şəhərdə yerləşən və dünyanın ən nüfuzlu yəhudi təşkilatlarından olan, 400 min yəhudi ailəsini özündə birləşdirən Simon Vizental (Simon Wisenthal) Mərkəzinin Tolerantlıq Muzeyində baş tutmuşdur.

Qeyd olunmalıdır ki, 2007-ci ildən bəri hər il keçirilən «Red Rock» film festivalında qısa və tammetrajlı filmlər və digər kateqoriyalar üzrə müxtəlif janrlarda ekran əsərləri nümayiş etdirilir. Ən yaxşı filmlər «Oskar», «BAFTA» və «Sundance» kimi nüfuzlu film müsabiqələrinin qaliblərindən ibarət münsiflər heyəti tərəfindən seçilir. Festival 2009-cu ildə ABŞ-da film sənayesi sahəsində tanınmış jurnallardan olan «MovieMaker» jurnalı tərəfindən tərtib edilən ən yaxşı film festivalları sırasında yer alıb. Festivala hər il dünyanın 50-yə yaxın ölkəsindən 700-dən çox film təqdim olunur. Onlardan yalnız seçilmiş filmlər festival çərçivəsində nümayiş etdirilir.

maraqlı

### «Ağıllı» qıfıl



ABŞ-da hər il daha da populyarlaşan bağlamaların evə çatdırılması həm də oğurluq hallarının sayını artırır. Bu səbəbdən də «Kickstarter» platformasında bağlamaları oğrulardan qorumaq üçün nəzərdə tutulmuş və barkod skaneri ilə təchiz edilmiş «ağıllı» qıfıl üçün vəsait toplanması kampaniyasına başlanılıb.

«Təhlükəsizlik sistemi»nin ideyası kifayət qədər sadədir. Evin divarında asma qıfılla bağlanan taxta sandıq yerləşdirilir. Kuryer bağlamanı gətirdikdə qıfıla quraşdırılmış skanerə barkodu yaxınlaşdırır. «BoxLock» barkoddan informasiyanı oxuyur və internetə daxil olaraq bağlamanın həmin şəxsə göndərildiyini və çatdırılmanın məhz həmin günə təyin edildiyini dəqiqləşdirir. Hər iki meyar uyğun gələrsə, qıfıl avtomatik açılır. Müştərinin mobil telefonuna bununla bağlı xəbərdarlıq göndərilir. Kuryer bağlamaları sandığa qoyaraq onu qıfılla bağlayır. Hazırda sistem «Amazon», «FedEx», «UPS» və «USPS» çatdırılma xidmətlərinin proqramlarına uyğundur. Su keçirməyən qıfıl enerji yükləmədən 30 gün işləyir. «Ağıllı» qıfılı «Kickstarter»də 94 dollara əldə etmək olar. Qurğunun bazar qiyməti 129 dollar təşkil edəcək. Kampaniya kifayət qədər vəsait toplayarsa, qıfıl 2018-ci ilin yay aylarında satışa çıxarılacaq.

**Müdriklər deyib ki...**



***«İnsan əxlaqı kitablardan yox, təcrübələrdən öyrənir. Uğurun sirri isə işi bayrama çevirməkdir».***

*Mark Tven (1835-1910)*